RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 40 (9785) 22 fevral 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2025-ci il*

## Hər zaman xalqının yanında

Fevralın 19-da Xocalı rayonunun Ballıca kəndinə köçən bir qrup sakinlə görüşü zamanı dilə gətirdiyi kimi, ötən iki onillik dövr ərzində Prezident İlham Əliyevin başlıca vəzifəsi Qarabağı azadlığına qovuşdurmaq, vətəndə qəribçilik çəkən yüz minlərlə keçmiş məcburi köçkünün həsrətinə son qoymaq olub. Elə həyata keçirdiyi daxili və xarici siyasət, aldığı mühüm qərarlar, milli maraqlarımızın təmini istiqamətində atdığı qətiyyətli addımlar da yalnız bu istiqamətə yönəlib.

İndi Şuşada, Laçında, Zəngilanda, Cəbrayılda, Füzulidə, Xocalıda... bu yerlərin əzəli sakinlərinin öz evlərində Prezident İlham Əliyevi əziz qonaqları kimi qarşılamaları, xoşbəxtliklərini sevinc gözyaşları ilə bölüşmələri Xilaskar Lider olaraq İlham Əliyevin qarşısına qoyduğu müqəddəs hədəflərə çatdığını göstərən ən riqqətləndirici nümunədir...

→ 8

## Suverenliyimizə atəş açılan ilk gün

### 1988-ci il fevralın 22-də Azərbaycan ədalətsiz savaşla üzləşdi

1988-ci il fevralın 13-dən Xankəndinin mərkəzi meydanında ermənilərin fasiləsiz mitinqləri başlamış və proses fevralın 20-nə qədər kütləvi şəkildə davam etdirilmişdi. Fevralın 20-də isə ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq azərbaycanlı deputatların iştirakı olmadan qərar qəbul etmişdilər ki, vilayət Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir.

Bu bədnam qərara və ermənilərin azğın davranışlarına görə etirazlarını bildirmək üçün 1988-ci il fevralın 22-də Əsgəran rayonu ərazisində Ağdam rayonunun sakinləri dinc nümayiş keçirmişdilər. Yürüş zamanı ermənilərin atəş açması nəticəsində Ağdam şəhərinin sakinləri - iki azərbaycanlı gənc Əli Hacıyev və Bəxtiyar Quliyev qətlə yetirilmişdi.

Beləliklə, Əli Hacıyev və Bəxtiyar Quliyev Ermənistanla Azərbaycan arasında münaqişənin ilk qurbanları oldular. Bu, qanlı hadisənin törədildiyi 1988-ci il fevralın 22-si tarixi, həm də Azərbaycanın suverenliyinə açılan ilk atəş günü oldu.

→ 7



# DƏYİŞƏN REALLIQLAR, DƏYİŞMƏZ MARAQLAR

## Azərbaycan mənliyini qoruyan, milli mənafeyini cəsarətlə müdafiə edən, öz iradəsini açıq şəkildə ortaya qoyan dövlətdir

Xalqın və dövlətin maraqlarını müdafiə etmək biz jurnalistlər üçün heç də həmişə asan olmayıb.

Güclülərlə hesablaşmalı olmuşuq.

**Bəzən əsl həqiqəti olduğu kimi deyə bilməmişik.**

**Mövcud reallıqları, qüvvələr nisbətini nəzərə almaq məcburiyyətində qalmışıq.**

*İçimizdən gələn sərt ifadələri yumşaq "diplomatik" deyimlərlə əvəz etmişik.*

* Çünki qaş düzəltdiyimiz yerdə göz çıxarmaqdan qorxmuşuq.

* Çünki uzun müddət özümüzdən qat-qat güclülərlə mübarizə aparmalı olmuşuq.

* Çünki aramızda naqislərin olduğunu, arxadan da zərbə vurulacağını düşünmüşük.

*Gözləmişik!*

*Dözmüşük!*

*Dərdimizi içimizdə çəkmişik!*

**Dünyanın düzələcəyinə, bizim də güc sahibinə çevriləcəyimizə inanmışıq!**

**İnanmışıq ki, vaxt gələcək önümüzdə elə bir rəhbər, elə bir sərkərdə olacaq ki, biz ona güvənərək gücümüzü ortaya qoyacaq, arxalı və quduz düşmənə qalib gələrək qisasımızı alacaq, torpaqları murdar ləpirlilərdən təmizləyə biləcəyik!**

*Bəlkə də özümüzü belə bir möcüzənin baş verəcəyinə inandırmağa çalışmışıq!*

* Görünür Tanrı səsimizi eşitdi!

* Görünür Tanrı dualarımızı qəbul etdi!

* Görünür Tanrı da belə haqsızlıqlara dözməyərək bizə müdrik rəhbər, qətiyyətli və uzaqgörən siyasətçi, qəhrəman və cəsarətli sərkərdə qismət edərək bütün əzab və iztirablarımıza birdəfəlik son qoydu, ən müqəddəs arzularımıza qovuşdurdu!

❖ ❖ ❖

**İnsanlar da, hətta dövlətlər də, adətən, gücləri çatmayan güclə hesablaşmaq məcburiyyətində qalırlar.**

Əks halda...

XI qızıl ordu müstəqilliyin dadını cəmi 23 ay görmüş Azərbaycan Xalq Cümhuriyyətini işğal etdi!

Hələ ordu quruculuğunu tam başa çatdırmamışdıq!

Üstəlik, Qarabağda aranı qəsdən qarışdıran erməniləri sakitləşdirmək üçün olub-qalan hərbi hissələrin əsas qismini ora göndərmişdik.

Odur ki, Azərbaycan parlamenti son iclasında hakimiyyəti ordu sahibinin nümayəndələrinə döyüşsüz təhvil vermək barədə qərar qəbul etdi.

Amma yenə itkilərdən yayınmaq mümkün olmadı.

Repressiya maşını işə salındı, insanlar mal-mülk sahibi olduqlarına görə amansızlıqla cəzalandırıldılar, təkcə varidatları əllərindən alınmadı, həm də sürgünə göndərildilər, həbsxanaya salındılar, güllələndilər...

**Ən əsası, millətin qaymaqları məhv edildi və ya sıradan çıxarıldı.**

**Dinə bilmədik, dözdük, yeni quruluşu alqışladıq, onun yaradıcılarını, repressiyanın başında dayananları təriflədik, vəsf etdik.**

*Başqa əlac yox idi.*

*Yetmiş ili belə yola verdik.*

❖ ❖ ❖

Yeni mərhələ "yenidənqurma" adlı oyunla başladı.

SSRİ-nin birinci və sonuncu prezidenti olan M.Qorbaçovun dirijorluğu ilə başlayan bu oyunbazlıqlar mahiyyətdə süquta uğrayan SSRİ adlı qırmızı imperiyanın iflasdan qorunmasına, yaşadılmasına xidmət edirdi.

Heyhat!

**Yenə eyni metodlar işə salınmışdı: məkrli planlar, ögey-doğmalıq, ara qızışdırmaq, qan tökmək, məqsədə zorakılıqla çatmaq...**

*Hər şeyi dərk etsək də, zora zorla cavab vermək iqtidarında deyildik!*

*Odur ki, özümüzü o yerə qoymur, öz aramızda həqiqəti danışsaq da, reallıqda deyiləni edirdik.*

MƏSƏLƏN:

* Yenidənqurmanı oyunbazlıq yox, "dərin islahatlar" adlandırırdıq.

* Ermənistandan vəhşicəsinə, zorla qovulanları qaçqın yox, "yaşayış yerini müvəqqəti tərk etmişlər", didərginlər yazırdıq.

* "Miatsum" bağıran separatçıları ərazi bütövlüyümüzə qəsd edənlər kimi yox, "iqtisadi cəhətdən geri qaldıqlarına görə etiraz edənlər" tək qəbul edirdik.

* Rusiyanın silahları ilə ordu quran Ermənistanı "görmür", həmin silahları götürüb Qarabağda yerli əhaliyə divan tutan "saqqallı"ların, "fədai"lərin dövlətdən "xəbərsiz" özbaşınalıq etdiklərinə "inanırdıq".

* Moskva xüsusi idarəetmə komitəsi yaradaraq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb həmin quruma tabe edəndə, komitəyə isə ermənipərəst emissarını rəhbər qoyanda bunu "mərkəzin bölgədə qayda-qanun yaratmaq istəyi" kimi "başa düşürdük".

→ 6

## Qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətləri uğurla inkişaf edir

### Prezident İlham Əliyev Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib.

→ 2

## Kənar qüvvələrin ətəyindən yapışmaq vərdişi

### Ermənistan getdikcə gərginləşən qarşıdurma meydanına çevrilir

Torpaqlarımızın işğaldan azad edilməsi Minsk qrupunun siyasi səhnədən getməsi, fəaliyyətinin iflasa uğraması ilə nəticələndi. Eyni zamanda sonrakı proseslər təsdiq etdi ki, Azərbaycanla Ermənistan problemləri heç bir vasitəçi olmadan özləri də həll edə bilərlər. Bunun ilk əsas nümunələrindən biri Azərbaycanın Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsidir.

Bu prosesin davamı kimi Azərbaycanla Ermənistan arasında ötən ildən başlayan dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesində də heç bir vasitəçi və ya üçüncü tərəf iştirak etmir. Beləliklə, bütün bunlar iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesində hər hansı üçüncü tərəfin vasitəçilik təşəbbüslərinə daha ehtiyac qalmadığını göstərir. Bu isə Azərbaycanın ilk gündən nümayiş etdirdiyi prinsipial niyyətlə üst-üstə düşür.

Bununla belə, Ermənistanın digər istiqamətlərdə ortaya qoyduğu fəaliyyət, proseslərə baxış bucağı yuxarıda qeyd olunanlarla tamamilə təzad təşkil edir. Söhbət ondan gedir ki, artıq hansısa vasitəçinin iştirakı olmadan problemlərin həlli mümkün olsa da, Ermənistan regiona kənar qüvvələrin gətirilməsində maraqlıdır. Bunu Ermənistanda Avropa İttifaqının müşahidəçi missiyasının yerləşdirilməsi də təsdiq edir. Missiyanın Ermənistana gəldiyi iki ildən artıq dövrün mənzərəsi isə göstərir ki, bu fəaliyyət heç bir halda regionda sülhə və təhlükəsizliyə xidmət etmir.

→ 9

## "Paşinyan zahiri görkəmi kimi fikirlərini də tez-tez dəyişir"

### Baş nazirin "konstitusiya islahatları" ilə bağlı açıqlaması başqa məqsədlərə də xidmət edə bilər

Ermənistan konstitusiyasının 19-cu maddəsi Erməni Apostol Kilsəsinə xüsusi imtiyazlar verib və bu imtiyazlar konstitusiyaya istinadla qəbul edilən qanunvericilik aktları ilə möhkəmləndirilib. 18-ci maddənin birinci bəndində qeyd olunur ki, "Ermənistan Respublikası Erməni Apostol Müqəddəs Kilsəsinin milli kilsə kimi erməni xalqının mənəvi həyatındakı, onun milli mədəniyyətinin inkişafı işindəki və milli özünəməxsusluğunun qorunmasındakı müstəsna missiyasını qəbul edir". Eyni maddənin ikinci bəndində isə deyilir ki, "Ermənistan Respublikası ilə Erməni Apostol Müqəddəs Kilsəsinin münasibətləri qanunla tənzimlənə bilər".

→ 9

# Qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətləri uğurla inkişaf edir

## Prezident İlham Əliyev Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədrini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi məmnunluqla qeyd olundu.

Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının birgə iclası keçirilib

**Fevralın 21-də İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində ölkəmizdə neft-qaz hasilatı sahəsində cari vəziyyət, əsas göstəricilər və perspektivlər, o cümlədən SOCAR-ın və ümumilikdə respublikanın neft-qaz sektorunun uzunmüddətli inkişaf planları, 2035-ci ilədək hasilat proqnozları, Hasilatın Pay Bölgüsü və Risk Xidməti sazişləri çərçivəsində işlənən və yeni yataqlar üzrə ehtiyat həcmləri, "Azneft" İstehsalat Birliyinin fəaliyyəti, Heydər Əliyev adına Neft Emalı Zavodunun Yenidənqurma və modernizasiya layihəsinin icra vəziyyəti, neft-kimya məhsullarının istehsalı və ölkədaxili yanacaq tələbatı, SOCAR tərəfindən ölkə xaricində həyata keçirilən layihələr, SOCAR-ın maliyyə göstəriciləri və digər cari məsələlər ətraflı müzakirə olunub.



Gündəlikdə olan məsələlər üzrə SOCAR-ın prezidenti Rövşən Nəcəfin geniş təqdimatı dinlənilib, eləcə də iqtisadiyyat naziri (SOCAR-ın Müşahidə Şurasının sədri) Mikayıl Cabbarov və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanov çıxış ediblər. İqtisadi Şuranın üzvləri təqdim olunan məsələlərə dair geniş müzakirələr aparıblar. İclasın yekununda İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə edilən məsələlər barədə qərarlar qəbul olunaraq AİH-in İdarə Heyətinə və SOCAR-a müvafiq tapşırıqlar verilib.

# Heydər Əliyev Fondu 10-dan çox rayonda yeni məktəb binaları inşa edir

**Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində regionlarda yeni məktəb binaları inşa edir.**

AZƏRTAC xəbər verir ki, hazırda Samux, Gəncə, Goranboy, Göyçay, Ucar və digər rayonlarda tikinti işləri aparılır.

Ümumiyyətlə, bu il 10-dan çox rayonda yeni məktəb binalarının istifadəyə verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, 2005-ci ildən həyata keçirilən proqramın əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir.

Proqram çərçivəsində 2005-2024-cü illərdə ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi var.

# E.M.Qarayevə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini Emil Maqsud oğlu Qarayevə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2025-ci il*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin mart ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 6,14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 7,11,14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 13 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 14 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 14 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 17 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 17 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 19 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 19 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 19 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu Zaur Nudirəliyev küçəsi, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

## "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il noyabrın 13-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2025-ci il*

## "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2021-ci il noyabrın 27-də Aşqabad şəhərində imzalanmış "İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2025-ci il*

## "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158 (Cild I); 2024, № 11, maddə 1184) 31-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində "vəsait kitabxananın sərəncamında qalır" sözləri "vəsaitdən (qeyri-dövlət kitabxanaları istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq istifadə edilir" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Muzeylər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 396 (Cild I) 25-ci maddəsinin ikinci cümləsində "gəlir bütövlükdə muzeylərin sərəncamında qalır" sözləri "vəsaitdən (bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq istifadə edilir" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2025-ci il*

## "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671 (Cild I); 2024, № 6 (I kitab), maddə 650) 4-cü hissəsində "455" rəqəmləri "473" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2025-ci il*

## "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 136-VIIQD nömrəli Qanununun tətbiqi və "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 136-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 31-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. "Muzeylər haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 25-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 136-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 115 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 167 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "ikinci bəndlərində" sözlərindən sonra ", 31-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 31-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2025-ci il*

# Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq münasibətləri yüksək səviyyədədir

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası Sədrinin birinci müavini Tariq Humaid Matar Mohd Altayerin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı APA-nın 15-ci plenar sessiyası çərçivəsində yenidən görməkdən məmnunluğunu bildirən Milli Məclisin Sədri dəvəti qəbul edib APA-nın plenar sessiyasında iştirak etdikləri üçün nümayəndə heyətinə təşəkkürünü bildirib.

Spiker diqqətə çatdırıb ki, ötən ildən etibarən Azərbaycan parlamenti APA-ya sədrlik edir və biz bu təşkilatı Asiya parlamentlərini birləşdirən, parlament diplomatiyası üçün mühüm platforma kimi daha da gücləndirməyə sadiqik. Sahibə Qafarova qeyd edib ki, belə parlament platformaları, eyni zamanda ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq münasibətləri yüksək səviyyədədir və strateji əhəmiyyət daşıyır. Xalqlarımız arasında mövcud olan tarixi, dini və mədəni əlaqələr ölkələrimiz arasında münasibətlərin daha da inkişafı üçün möhkəm bir təməl yaradır. Diplomatik əlaqələrimizin qurulduğu 1992-ci ilin sentyabr ayından bəri müxtəlif sahələrdə əməkdaşlıq yüksək səviyyəyə çatıb. İqtisadi əlaqələrimiz gündən-günə inkişaf edir. Siyasi dialoq çox aktivdir.

Sahibə Qafarova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin BƏƏ-yə səfərləri, həmçinin BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri çərçivəsində bir sıra mühüm sənədlər imzalanıb. Bunlar arasında "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" xüsusi əhəmiyyətə malikdir. Həmçinin bir milyard dollarlıq maliyyə imkanına malik Birgə İnvestisiya Fondu təsis edilib. Qeyd olunub ki, 2024-cü ilin avqustunda Şuşada keçirilmiş Azərbaycan-BƏƏ İqtisadi, Ticarət və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyasının 9-cu iclası da mühüm önəm daşıyır.

Bildirilib ki, ölkələrimiz enerji sahəsində də yaxından əməkdaşlıq edirlər. BƏƏ-nin "Masdar" şirkəti tərəfindən 2023-cü ilin oktyabr ayında tikilmiş Qaradağ Günəş-Elektrik Stansiyası Azərbaycanda xarici investisiya ilə inşa edilən ilk bərpaolunan enerji stansiyasıdır. Bununla yanaşı, üç günəş və bir külək-elektrik stansiyasının təməlləri qoyulmuşdur.

Spiker Sahibə Qafarova qeyd edib ki, parlamentlərimiz də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Dost BƏƏ-nin Federal Milli Şurası ilə parlamentlərarası əlaqələrin inkişafına böyük önəm veririk. Bizim parlamentlərarası təşkilatlar çərçivəsində - PAİ, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı, APA və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində də müsbət əməkdaşlığımız mövcuddur.

Milli Məclisin Sədri BƏƏ parlamentinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində fəal iştirakını yüksək qiymətləndirib. Spiker Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Parlament Şəbəkəsinin institusional inkişafı üçün Azərbaycanın verdiyi töhfələri diqqətə çatdırıb. Söhbət zamanı cari ilin aprel ayında Özbəkistanda Parlamentlərarası İttifaqın 150-ci Baş Assambleyasının keçirilməsi, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində görüləcək işlər barədə də fikir mübadiləsi aparılıb.

Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası Sədrinin birinci müavini Tariq Humaid Matar Mohd Altayer Azərbaycanda olmaqdan və APA-nın 15-ci plenar sessiyasında iştirak etməkdən məmnunluğunu bildirib. O qeyd edib ki, Azərbaycanın APA-ya sədrliyi dövründə xeyli işlər görülüb və bu işlər təşkilatın əhatə etdiyi bölgə üçün çox vacibdir. Qonaq bu təşkilatı orada təmsil olunan ölkələrin parlamentləri ilə iş aparmaq, onları düşündürən məsələləri müzakirə etmək üçün əlverişli platforma adlandırıb. Bildirilib ki, dövlət başçılarımız arasındakı yaxşı münasibətlər parlamentlərimizə də öz müsbət təsirini göstərir. Deputatlarımızın qarşılıqlı səfərləri də parlamentlərarası əlaqələrimizin dərinləşməsində böyük rol oynaya bilər.

Görüşdə tərəfləri maraqlandıran digər mövzularda da müzakirələr aparılıb.

***"Azərbaycan"***

# Azərbaycanla Tailand arasında əməkdaşlığın inkişafı üçün geniş imkanlar var

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tailand Krallığının Nümayəndələr Palatasının Sədr müavini Paradorn Prissanantakul ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə APA-nın plenar sessiyasının yüksək səviyyədə təşkil edildiyi, bu təşkilatın bir çox mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyətli beynəlxalq platforma olduğu diqqətə çatdırılıb. Həmçinin bu cür tədbirlərin təşkilata üzv ölkələr arasında dialoqun gücləndirilməsi və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da vacib rolu qeyd edilib.

Söhbət zamanı Azərbaycanla Tailand Krallığı arasında yaxşı əlaqələr yarandığı, əməkdaşlığın inkişafı üçün müxtəlif imkanların mövcud olduğu da vurğulanıb. Bu mənada parlamentlərimizin qarşılıqlı fəaliyyətinin dövlətlərimiz arasında əlaqələrin daha da inkişafına mühüm və müsbət təsir göstərə biləcəyi ifadə edilib.

Nümayəndələr Palatasının sədr müavini ölkəmizə səfəri ilə bağlı müsbət təəssüratlarını bölüşüb. O, Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının uğurla təşkil olunması ilə bağlı təbriklərini çatdırıb.

Görüşdə beynəlxalq parlament təşkilatlarında da əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Spiker Sahibə Qafarova qonağa Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti və həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Qeyd olunub ki, Azərbaycanın sədrliyi ilə Parlament Şəbəkəsinin yaradılması, onun mühüm beynəlxalq əməkdaşlıq platforması kimi institusional əsaslarının gücləndirilməsi istiqamətində vacib işlər görülüb. Eyni zamanda Parlament Şəbəkəsinin digər beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığının genişləndirilməsi ilə bağlı da addımlar atılır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə Ankara şəhərinə səfər edib.**

YAP nümayəndə heyəti fevralın 23-də AK Partinin Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçiriləcək VIII Böyük Qurultayında iştirak edəcək. Səfər çərçivəsində bir sıra görüşlərin keçirilməsi də nəzərdə tutulub.

Nümayəndə heyətinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildirlər.

# DGK sədri Mingəçevirdə vətəndaşların müraciətlərini dinləyib

**Dünən Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov Mingəçevir Gənclər Evində Mingəçevir şəhəri və Yevlax rayonundan olan vətəndaşların müraciətlərini dinləyib.**



DGK-dan AZƏRTAC-a bildirilib ki, komitə sədri görüşdən öncə Mingəçevir şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Mingəçevir şəhəri və Yevlax rayonunun sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 26**

**Bakı şəhəri, 19 fevral 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin "a" bəndində "təyyarə meydanları" sözləri "aerodromlar və ya helikopter meydançaları" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası ərazi və daxili sularında özü hərəkət edən və özü hərəkət etməyən üzmə vasitələrin saxlanılması Qaydaları"nın 14-cü hissəsinin birinci abzasında "vertolyotların" sözü "helikopterlərin" sözü ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədində profilaktik zolaq və baytar-sanitar rejiminə dair Qaydalar" üzrə:

1.3.1. 4.4-cü bəndin birinci cümləsində "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

1.3.2. 5.1-ci bənddə "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə və "beynəlxalq xətt" sözləri "beynəlxalq uçuşlar" sözləri ilə əvəz edilsin;

1.3.3. 5.3-cü bəndin ikinci abzasında "aeroport" sözü "hava limanı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli 700 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 79) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin Əsas Prinsipləri"nin 4.8-ci bəndinin beşinci abzasında "vertolyotlarını" sözü "helikopterlərini" sözü ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78, № 11, maddə 1260) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarəti məntəqələri haqqında Əsasnamə" üzrə:

3.1.1. 3-cü bölmənin birinci hissəsinin altıncı abzasında "aeroportların" sözü "hava limanlarının" sözləri ilə əvəz edilsin;

3.1.2. 5-ci bölmənin yeddinci abzasının birinci cümləsində "milli və xarici hava gəmilərinin xüsusi uçuşları" sözləri "Azərbaycan Respublikasına və xarici dövlətə mənsub hava gəmilərinin liter reysləri" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası ərazisinin sanitar mühafizəsi Qaydaları"nın 2.21-ci bəndinin birinci cümləsində "aeroportda" sözü "hava limanında" sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Dövlət sərhədini pozan hava gəmilərinə və uçuş aparatlarına qarşı hava hücumundan müdafiə qoşunlarının növbətçi qüvvə və döyüş texnikasının tətbiq edilməsi Qaydaları" üzrə:

3.3.1. 2-ci hissənin birinci və ikinci abzaslarına "xarici" sözündən sonra, həmin hissənin ikinci abzasına "Xarici" sözündən sonra və 4-cü hissənin birinci abzasının birinci cümləsinə "xarici" sözündən sonra "dövlətə mənsub" sözləri əlavə edilsin;

3.3.2. 2-ci hissənin birinci abzasında "gəmilərin" sözü "hava gəmilərinin" sözləri ilə, həmin hissənin ikinci abzasında "və yaxınlıqdakı" sözləri "və ya ölkə daxilində yaxınlıqdakı" sözləri ilə əvəz edilsin;

3.3.3. 3-cü hissənin birinci abzasında "aviasiya hissələrinin, hava hücumundan müdafiə qoşun birləşmələrinin və ya yuxarı komanda məntəqələrinin əməliyyat növbətçilərinin qərarı" sözləri "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tələbi" sözləri ilə əvəz edilsin;

3.3.4. 3-cü hissənin birinci abzasında (birinci və ikinci hallarda), 4-cü hissədə (hər üç halda), 7-ci hissədə və qeyd hissəsinin ikinci cümləsində ismin müvafiq hallarında "təyyarə" sözü ismin müvafiq hallarında "hava gəmisi" sözləri ilə əvəz edilsin;

3.3.5. 4-cü hissənin birinci abzasının birinci cümləsində, 5-ci hissənin birinci abzasının ikinci cümləsində (hər iki halda), 7-ci hissədə və 8-ci hissənin birinci abzasının birinci cümləsində ismin müvafiq hallarında "vertolyotlar" sözü ismin müvafiq hallarında "helikopterlər" sözü ilə əvəz edilsin;

3.3.6. 4-cü hissənin birinci abzasının ikinci cümləsində, 9-cu hissənin birinci cümləsində ismin müvafiq hallarında "təyyarələr" sözü ismin müvafiq hallarında "hava gəmiləri" sözləri ilə əvəz edilsin;

3.3.7. 8-ci hissənin ikinci abzasının birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Məcburi qaydada yerə enmək barədə xüsusi tələblərə riayət etməyən, bortunda pozuntu törədilməsində təqsiri olmayan sərnişinlərin olması barədə düzgün məlumat olmayan və ya özünümüdafiə tələb edilən halda hava gəmisinin məhvinə icazə verilir.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 79, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin problemləri üzrə kompleks Proqram"ın 5.3-cü bəndinin onuncu abzasının "Tədbirlər" sütununda "aeroport" sözü "hava limanı" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 12 iyul tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası diplomatik poçtunun daşınması qaydası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissənin birinci abzasında "aviasiya marşrutları" sözləri "hava marşrutları" sözləri ilə və üçüncü abzasında "aviasiya marşrutları sərnişin təyyarələrinin birinci" sözləri "hava marşrutları sərnişin daşımasını həyata keçirən hava gəmilərinin birinci dərəcəli" sözləri ilə əvəz edilsin;

5.2. 5-ci hissənin birinci cümləsində "Təyyarənin" sözü "Hava gəmisinin" sözləri ilə əvəz edilsin;

5.3. 5-ci hissənin ikinci cümləsində, 20-ci hissənin birinci abzasının ikinci cümləsində və 21-ci hissədə ismin müvafiq hallarında "təyyarə" sözü ismin müvafiq hallarında "hava gəmisi" sözləri ilə əvəz edilsin;

5.4. 5-ci hissənin üçüncü cümləsində "Xarici aviasiya xətlərində" sözləri "Beynəlxalq hava daşımalarında" sözləri ilə əvəz edilsin;

5.5. 20-ci hissənin birinci cümləsində "aeroportlara" sözü "hava limanlarına" sözləri ilə və "aeroportlardan" sözü "hava limanlarından" sözləri ilə əvəz edilsin;

5.6. 20-ci hissənin birinci abzasının ikinci cümləsində "aeroporta" sözü "hava limanına" sözləri ilə əvəz edilsin;

5.7. 21-ci, 30-cu və 31-ci hissələrdə "aeroporta" sözü "hava limanına" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 20 may tarixli 53 nömrəli Qərarı (Cild I); 2024, № 2, maddə 242, № 5 (II kitab), maddə 612, № 7, maddə 910) ilə təsdiq edilmiş "Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamə"nin "1. Müharibə veteranları" hissəsinin on birinci abzasında "uçan aparatlar" sözləri "uçuş aparatları" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 14 dekabr tarixli 237 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 804 (Cild I); 2024, № 9, maddə 1090) 2 nömrəli əlavə - "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ödənişsiz və ödənişli məlumatların növləri"nin "Ödənişli məlumatlar" bölməsinin 5-ci hissəsinin onuncu abzasında "respublika aeroportu" sözləri "hava limanı" sözləri ilə, on birinci abzasında "aviasiya marşrutları" sözləri "hava marşrutları" sözləri ilə və "yerli aeroportlar" sözləri "hava limanları" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 mart tarixli 51 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 206 (Cild I) ilə təsdiq edilmiş "Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilən torpaq sahələrinin hüdudlarında yerin təkindən istifadə Qaydaları"nın 2.3-cü bəndində "təyyarə" sözü "hava" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 381 (Cild I) ilə təsdiq edilmiş "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nın 2.2-ci bəndinin səkkizinci abzasında "vertolyot" sözü "helikopter" sözü ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 9 iyul tarixli 115 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 462 (Cild I) ilə təsdiq edilmiş "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlardan istifadəyə görə ödəmə d?r?c?l?ri və qaydaları"nın V bölməsinin onuncu abzasının "Aparılan müşahidələrin, xidmət işlərinin adı" sütununda "aeroportu" sözü "hava limanı" sözləri ilə, on birinci abzasının "Aparılan müşahidələrin, xidmət işlərinin adı" sütununda "aviasiya marşrutları" sözləri "hava marşrutları" sözləri ilə və "aeroportlar" sözü "hava limanları" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nın 1.2-ci bəndinin səkkizinci abzasında "və hava nəqliyyatlarının ekipaj" sözləri "nəqliyyatlarının ekipaj və hava gəmilərinin heyət" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I); 2024, № 9, maddələr 1067, 1106) ilə təsdiq edilmiş "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın "XXVII. Nəqliyyat" bölməsinin "Mülki aviasiya" hissəsinin birinci abzasında "uçma aparatlara" sözləri "uçuş aparatlarına" sözləri ilə, ikinci abzasında "uçma təlim" sözləri "uçuş təlimi" sözləri ilə əvəz edilsin və on ikinci abzasına "təyyarələrin" sözündən sonra "və helikopterlərin" sözləri əlavə edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I); 2024, № 2, maddələr 208, 229; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 546 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Torpaqların zonalaşdırılmasının ümumi əsasları və prinsipləri"nin 2.7-ci bəndinin dördüncü abzasında "Təyyarə" sözü "Aerodromlar və helikopter" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 30 iyun tarixli 110 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 475 (Cild I) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. IV bölmənin adında "uçuş" sözü "uçuşlarının" sözü ilə əvəz edilsin;

14.2. 4.2-ci bənddə "Azərbaycan Respublikasında qüvvədə olan, mülki aviasiyanın fəaliyyətini nizama salan qanunvericilik və normativ hüquqi aktların" sözləri "uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq standartlara, habelə aviasiya sahəsində yaranan münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin;

14.3. 4.3-cü bəndin birinci abzasında "İKAO-nun Standartlarını və Tövsiyə praktikasını" sözləri "Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarını və tövsiyə olunan təcrübəsini" sözləri ilə əvəz edilsin;

14.4. 4.4-cü bəndin ikinci abzasında "şəhadətnamələri (sertifikatları)" sözləri "sertifikatı" sözü ilə əvəz edilsin;

14.5. 4.6-cı bəndin üçüncü abzasına "hava gəmilərinin" sözlərindən sonra ", hava limanlarının" sözləri əlavə edilsin, həmin bəndin dördüncü abzasında "münaqişələrinin" sözü "insidentlərinin" sözü ilə, beşinci və doqquzuncu abzaslarında ismin müvafiq hallarında "komanda-rəhbər, uçuş, dispetçer, mühəndis-texniki heyətlər" sözləri ismin müvafiq hallarında "aviasiya personalı" sözləri ilə və altıncı abzasında "şəhadətnamənin (sertifikatın)" sözləri "şəhadətnamə, vəsiqə və sertifikatların" sözləri ilə əvəz edilsin;

14.6. 4.7-ci bəndin altıncı abzasında "aerodromların" sözü "hava limanlarının (aerodromlarının)" sözləri ilə, "şəhadətnamələr" sözü "sertifikatlar" sözü ilə əvəz edilsin, həmin bəndin yeddinci abzasında "yararlı olması haqqında vəsiqələr" sözləri "yararlılıq sertifikatlarını" sözləri ilə, səkkizinci abzasında "münaqişələrinin tədqiqatının gedişinə nəzarət edir" sözləri "insidentlərinin araşdırılmasının gedişində iştirak edir" sözləri ilə, doqquzuncu abzasında "qəzaya" sözü "aviasiya hadisəsinə" sözləri ilə və "edilməsini təşkil" sözləri "edilməsində iştirak" sözləri ilə əvəz edilsin;

14.7. 4.7-ci bəndin "b" yarımbəndində "xarici hava gəmilərinin" sözləri "xarici dövlətə mənsub hava gəmilərinin" sözləri ilə, "Standartları və Tövsiyə praktikasının (SARPS)" sözləri "beynəlxalq standartları və tövsiyə olunan təcrübəsinin" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 684 (Cild I); 2024, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 546 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 6.13-cü bəndin beşinci abzasında "aeroport" sözü "hava limanı" sözləri ilə əvəz edilsin;

15.2. 6.14-cü bəndin ikinci abzasında "aeroportlar" sözü "hava limanları" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 285 (Cild I); 2024, № 9, maddə 1055) ilə təsdiq edilmiş "Cəza çəkmədən azad edilmiş şəxslərin qida, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydası"nın 4-cü hissəsinin birinci cümləsində "təyyarə" sözü "sərnişin" sözü ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 dekabr tarixli 534 nömrəli, 29 dekabr tarixli 558 nömrəli və 2025-ci il 22 yanvar tarixli 12 nömrəli qərarları) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 8.9-cu bəndində "təyyarədə" sözü "hava gəmisində" sözləri ilə əvəz edilsin.

18. "Viza blankının təsviri, spesifikasiyası və nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 12, maddə 741 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

18.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Viza blankının təsviri"nın birinci hissəsində "İCAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatının)" sözləri "Beynəlxalq Mülki Aviasiya Təşkilatının" sözləri ilə əvəz edilsin;

18.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Viza blankının spesifikasiyası"nın birinci hissəsində "İCAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatının)" sözləri "Beynəlxalq Mülki Aviasiya Təşkilatının" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067, 1106) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "XXX. Nəqliyyat" bölməsinin "Ç. Mülki aviasiya" hissəsinin 128-ci, 130-cu, 148-ci və 151-ci (hər iki halda) bəndlərinin "İstehsalat, peşə və vəzifələrin adı" sütununda ismin müvafiq hallarında "vertolyotlar" sözü ismin müvafiq hallarında "helikopterlər" sözü ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 759 (Cild I); 2024, № 2, maddə 208, № 4, maddə 472, № 5 (II kitab), maddə 612, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 548 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində ovçuluq fəaliyyətini həyata keçirmək üçün istifadə edilən ov alətlərinin növü və istifadəsi qaydası"nın 3.12-ci bəndinin dördüncü abzasında "vertolyotla" sözü "helikopterlə" sözü ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 957 (Cild I); 2024, № 2, maddə 229) ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nın 2.1-ci bəndinin altıncı abzasında "vertolyot" sözü "helikopter" sözü ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 54 (Cild I); 2024, № 4, maddə 472) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları"nın V hissəsinin on beşinci abzasında "vertolyotla" sözü "helikopterlə" sözü ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 388 (Cild I) ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nın 8.1-ci bəndinin birinci cümləsində "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci hissəsində "aeroport" sözü "hava limanı" sözləri ilə və "aeroportların" sözü "hava limanlarının" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 190 (Cild I); 2024, № 1, maddə 81) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

25.1. "1B001,b", kateqoriyasının "Adları" sütununun "Qeyd" hissəsində "pilotsuz hava uçuş" sözləri "pilotsuz uçuş aparatı" sözləri ilə, "9A105,b", "9A107" və "9A119" kateqoriyalarının "Adları" sütununda "pilotsuz hava nəqliyyat" sözləri "pilotsuz uçuş aparatı sistemlərinin" sözləri ilə, "ML10" kateqoriyasının "Adları" sütununun "g" bəndində "ekipaj" sözü "hava gəmisinin heyəti" sözləri ilə əvəz edilsin;

25.2. Siyahının mətni üzrə ismin müvafiq hallarında "vertolyot" sözü "helikopter" sözü ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 oktyabr tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 907 (Cild I); 2024, № 2, maddə 233) ilə təsdiq edilmiş "Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

26.1. 2.3-cü bənddə "ekipajlarının" sözü "heyətlərinin" sözü ilə əvəz edilsin;

26.2. 2.4-cü bənddə "vertolyotdan" sözü "helikopterdən" sözü ilə əvəz edilsin;

26.3. 3.1-ci bənddə (hər iki halda) və 3.2-ci bəndin birinci abzasında (hər iki halda) "ekipaj" sözü "heyət" sözü ilə əvəz edilsin;

26.4. 3.2-ci bəndin birinci abzasında "vertolyotların" sözü "helikopterlərin" sözü ilə əvəz edilsin;

26.5. 3.5-ci bənddə (hər üç halda) "vertolyotlardan" sözü "helikopterlərdən" sözü ilə əvəz edilsin;

26.6. 3.3-cü bənddə "qəza-xilasetmə (axtarış-xilasetmə)" sözləri "axtarış və xilasetmə" sözləri ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 58 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti Qaydası"nın 5.2-ci bəndində "təyyarələrə" sözü "hava gəmilərinə" sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I); 2024, № 2, maddələr 209, 211, 233) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 2.5-ci bəndində "təyyarələrdə" sözü "hava gəmilərində" sözləri ilə və "təyyarənin" sözü "hava gəmisinin" sözləri ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 15.21-ci bəndində "Məsafədən idarə edilən pilotsuz uçan aparatların" sözləri "Mülki pilotsuz uçuş aparatlarının" sözləri ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 27 avqust tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 834 (Cild I) ilə təsdiq edilmiş "Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki vasitələrin siyahısı və onlardan istifadə Qaydaları"nın 3.3-cü bəndində "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1379 (Cild I) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nın 5.1-1-ci bəndində "aeroportun" sözü "hava limanının" sözləri ilə əvəz edilsin.

32. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 82) aşağıdakı dəyişikliklər edilsin:

32.1. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin uçuş heyəti üçün ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 1.8-ci bəndində "vertolyotların" sözü "helikopterlərin" sözü ilə əvəz edilsin;

32.2. həmin Qərarla təsdiq edilmiş 9 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ümumqoşunları və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyəti üçün quru ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 2-ci bəndində "uçuş aparatlarının və vertolyotların ekipajları" sözləri "hava gəmisinin heyəti" sözləri ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203 (Cild I); 2024, № 1, maddə 74, № 2, maddə 209, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın 1.40.1-ci yarımbəndində "aeroportlar" sözü "hava limanları" sözləri ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 fevral tarixli 51 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 206 (Cild I); 2024, № 1, maddə 74) ilə təsdiq edilmiş "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"ın 4.5-ci bəndinin üçüncü cümləsində "aeroportlar" sözü "hava limanları" sözləri ilə əvəz edilsin.

*Ardı 5-ci səh.*

# “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 26

Bakı şəhəri, 19 fevral 2025-ci il

*Əvvəli 4-cü səh.*

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1133 (Cild I); 2024, № 4, maddə 440, № 7, maddə 907) ilə təsdiq edilmiş "Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı"nın 2.4-cü bəndində "aeroportlar (hava limanları)" sözləri "hava limanları" sözləri ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 mart tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətə cəlb olunmuş şəxslərə qarşı preventiv tədbirlərin həyata keçirilməsi Qaydası"nın 4.12.1-ci yarımbəndində "təyyarələrdə" sözü "hava gəmilərində" sözləri ilə əvəz edilsin.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

37.1. "8479 71 000 0" alt yarımmövqeyinə aid sətrin "Mal mövqelərinin adları" sütununda və "8709" alt yarımmövqeyinə aid sətrin "Mal mövqelərinin adları" sütununda "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

37.2. "QRUP 88"də cədvəl üzrə ismin müvafiq hallarında "vertolyotlar" sözü ismin müvafiq hallarında "helikopterlər" sözü ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 fevral tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 358 (Cild I) ilə təsdiq edilmiş "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının verilməsi Qaydaları, o cümlədən təhsil qrantının məbləği"nin 2.3-cü bəndində "təyyarə" sözü "hava nəqliyyatına sərnişin" sözləri ilə əvəz edilsin.

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 mart tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 617 (Cild I) ilə təsdiq edilmiş "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının verilməsi Qaydaları, o cümlədən təhsil qrantının məbləği"nin 2.3-cü bəndində "təyyarə" sözü "hava nəqliyyatına sərnişin" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli 523 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin "11.1.4. Hava nəqliyyatı" paraqrafının ikinci abzasında "pilotların, ekipajların" sözləri "hava gəmisinin heyətinin" sözləri ilə əvəz edilsin.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 191 (Cild I) ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

41.1. 2.5.2.3-cü yarımbəndin ikinci cümləsində "vertolyot" sözü "helikopter" sözü ilə və "heyət və vertolyot ekipajı" sözləri "hava gəmisinin heyəti" sözləri ilə əvəz edilsin;

41.2. 2.5.2.10-cu yarımbəndin birinci cümləsində "Vertolyotlardan" sözü "Helikopterdən" sözü ilə və "vertolyotdan" sözü "helikopterdən" sözü ilə əvəz edilsin;

41.3. 2.5.25-ci yarımbəndin adında "vertodromlarla" sözü "helikopter meydançaları" sözləri ilə və 2.5.25.1-ci yarımbənddə "vertodromların" sözü "helikopter meydançalarının" sözləri ilə əvəz edilsin;

41.4. 5.5.1.1-ci yarımbəndin ikinci abzasında ", təyyarələrdə və digər uçan aparatlarda" sözləri ", hava gəmilərində" sözləri ilə əvəz edilsin.

42. "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın, "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın və "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443) aşağıdakı dəyişikliklər edilsin:

42.1. adında (hər üç halda), 1-ci, 2-ci və 3-cü hissələrdə "aeroportlarında (hava limanlarında)" sözləri "hava limanlarında" sözləri ilə əvəz edilsin;

42.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın və həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın adlarında "aeroportlarında (hava limanlarında)" sözləri "hava limanlarında" sözləri ilə əvəz edilsin;

42.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları" üzrə:

42.3.1. adında, 1.1-ci, 1.2-ci bəndlərdə, 2.1-ci bəndin birinci cümləsində, 3.1-ci bəndin birinci cümləsində (hər iki halda), 3.3-cü, 3.5-ci bəndlərdə və 4.7-ci bəndin birinci cümləsində ismin müvafiq hallarında "aeroportlar (hava limanları)" sözləri ismin müvafiq hallarında "hava limanları" sözləri ilə əvəz edilsin;

42.3.2. 1.2-ci bənddə "aeroport" sözü "hava limanı" sözləri ilə və "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

42.3.3. 2.1-ci bəndin birinci cümləsində və 2.3-cü bənddə "aeroportun (hava limanının)" sözləri "hava limanının" sözləri ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 672 (Cild I); 2024, № 5 (II kitab), maddə 611, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə sertifikat və fərdi kod nömrəsinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

43.1. 2.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.3. aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar - mülki aviasiyanın təhlükəsizlik sisteminin vəziyyətinin qiymətləndirilməsi, "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın tələblərinə uyğunluğunun müəyyən edilməsi və aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üzrə keçirilən tədbirlərin məcmusu;";

43.2. 3.15-ci bənddə "uyğunluğu yerində yoxlanılır və yoxlamanın nəticələrinə dair bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada akt" sözləri "uyğunluğunun yerində yoxlanılması üçün aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar aparılır və yoxlamanın nəticələrinə dair hesabat" sözləri ilə əvəz edilsin;

43.3. 3.16-cı bənddə "Müfəttiş yoxlamasına dair akt" sözləri "Aviasiya təhlükəsizliyi sahəsində yoxlamalara dair hesabat" sözləri ilə əvəz edilsin;

43.4. 6.1.2-ci yarımbənddə "müfəttiş yoxlamaları" sözləri "aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar" sözləri ilə əvəz edilsin;

43.5. həmin Qaydaya 1 nömrəli əlavə - "Qeydiyyatdan keçmiş yük agentlərinin (məlum yükgöndərənlərin) sertifikatlaşdırılması üçün ərizə"nin "b" bəndində "müfəttiş yoxlaması" sözləri "aviasiya təhlükəsizliyi sahəsində yoxlama" sözləri ilə əvəz edilsin;

43.6. həmin Qaydaya 3 nömrəli əlavə - "Müfəttiş yoxlamasına dair Akt" ləğv edilsin.

44. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 iyul tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1070 (Cild I) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

44.1. "QRUP 87." hissənin "8709" alt yarımmövqeyinə aid sətrin "Mal mövqeyinin adı" sütununda "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

44.2. "QRUP 88." hissənin "8802" alt yarımmövqeyinə aid sətrin "Mal mövqeyinin adı" sütununda "vertolyotlar" sözü "helikopterlər" sözü ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 oktyabr tarixli 380 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1460 (Cild I) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın verilməsi Qaydası"nın 2.3-cü bəndində və 3.2.2-ci yarımbəndinin dördüncü cümləsində "təyyarə" sözü "hava nəqliyyatına sərnişin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Gələcəyə baxış: Yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi






**Fevralın 21-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Yüksəliş" müsabiqəsinin iştirakçılarının təşəbbüsü ilə "Gələcəyə baxış: Yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi" mövzusuna həsr olunan forum keçirilib.**

AZƏRTAC xəbər verir ki, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev Azərbaycanın müstəqilliyini və suverenliyini gücləndirmək məqsədilə belə tədbirlərin mütəmadi olaraq keçirilməsinin dövlətçilik siyasətinin inkişafına və beynəlxalq mövqeyimizin daha da güclənməsinə xidmət edəcəyini vurğulayıb.

Daha sonra "Yüksəliş" müsabiqəsi tərəfindən Azərbaycanın suverenliyi mövzusunda hazırlanmış videoçarx forum iştirakçılarına nümayiş etdirilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva forumun müstəqil Azərbaycanın bütövlüyünün möhkəmləndirilməsinə töhfə verdiyindən danışıb. O bildirib ki, bu tədbir xalqımızda mübariz birliyin daha da möhkəmlənməyində, birlikdə iştirakçısı və şahidi olduğumuz tarixi prosesin gələcək nəsillərə ötürülməsində böyük rol oynayacaq.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bildirib ki, son 30 ildə Azərbaycan dövlət quruculuğu və qanunvericilik sahəsində böyük irəliləyişlər əldə edib. 2019-cu ildə Prezident İlham Əliyevin Konstitusiya ilə bağlı fərmanına əsasən, məhkəmə sistemində islahatlar aparılaraq cəmiyyətin məhkəmələrə inamı artırılıb. Daha sonra o qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tərəqqisi, milli kimliyin güclənməsi və təhsilin inkişafı üçün möhkəm təməl yaradıb. Ulu Öndər Heydər Əliyevin və xalqımızın arzusu olan tam suverenlik və ərazi bütövlüyü bu gün gerçəkləşib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov vurğulayıb ki, Prezident İlham Əliyev məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Gündüz Kərimov qeyd edib ki, konstitusiya cəmiyyət inkişaf etdikcə dəyişikliklərə məruz qalır və bu dəyişikliklər dövlətçiliyin möhkəmlənməsinə xidmət edir. 2002, 2009 və 2016-cı illərdə edilən konstitusiya dəyişiklikləri dövlət idarəetməsini gücləndirib və 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın suverenliyinin tam əraziyə şamil olunması ilə nəticələnib.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Ziyafət Əsgərov bildirib ki, Azərbaycanın suverenliyi bütün ərazilərində bərpa edilərək gücləndirilib. O qeyd edib ki, Konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycanın ərazisi vahid, toxunulmaz və bölünməzdir, bu gün Konstitusiyamız ölkənin bütün suveren ərazisində hakimdir. O, eyni zamanda Ümummilli Lider Heydər Əliyevin Prezident kimi həyata keçirdiyi güclü dövlətçilik siyasətinin ölkənin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, dövlətin qarşısına qoyduğu hədəflərə çatmaq üçün insan resursları kapitala çevrilməlidir. O, Azərbaycanın inkişafının dərinləşməsi, hüquq sisteminin möhkəmlənməsi, iqtisadi imkanların artırılması və sosial rifahın yaxşılaşdırılması barədə danışıb. B.Muradova həmçinin "Yüksəliş" müsabiqəsi iştirakçılarını Azərbaycanın inkişafı və suverenliyi naminə birliyə çağıraraq milli-mənəvi dəyərlərin qorunması üçün fəal olmağa səsləyib.

Forumda çıxış edənlər onu da vurğulayıblar ki, Azərbaycanın suverenliyini beynəlxalq aləmdə möhkəmləndirmək və ölkənin daxili siyasətində və iqtisadiyyatında davamlı inkişafı təmin etmək yalnız dövlətin gələcəyi üçün deyil, həm də xalqımızın rifahı, hüquqi, siyasi və iqtisadi müstəqilliyinin daha da genişlənməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar qeyd ediblər ki, Azərbaycan Respublikası Konstitusiyasının üzərində qurulan möhkəm təməl və suveren dövlət olaraq ölkəmizin müstəqilliyini daha da gücləndirmək üçün atılacaq addımlar beynəlxalq əlaqələrdə daha müsbət təsir yaradacaq və Azərbaycanın dünya siyasətində daha möhkəm mövqe tutmasına imkan verəcək.

Forum rəsmi çıxışlardan sonra panel müzakirələri ilə davam edib. Bu müzakirələrdə ölkəmizin müstəqilliyi və milli maraqlarının qorunması istiqamətində atılan vacib addımlarla yanaşı, gələcək nəsillər üçün strateji əhəmiyyət daşıyan məsələlər də geniş şəkildə müzakirə edilib. Forumun əsas məqsədi "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, milli maraqların qorunmasını təmin etmək və qlobal çağırışlar fonunda suveren siyasətimizin inkişaf perspektivlərini dərindən müzakirə etmək olub.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsinin iştirakçılarının təşəbbüsü ilə artıq ikinci dəfə forum təşkil olunur. Ötən il baş tutan ilk forum müsbət trendləri müzakirə, müsabiqənin davamlılığını təmin etmək və perspektivli idarəçi kadrlar arasında peşəkar əlaqələri inkişaf etdirmək məqsədilə təşkil olunub.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il dekabrın 18-də müvafiq sərəncam imzalayıb.

## 22 Fevral Avtomobil Yolları İşçilərinin Peşə Bayramı Günüdür

# Yolumuz daim abad olsun

**Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də yol infrastrukturunun yenidən qurulmasıdır. Ölkədə yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər sürətlə aparılır.**

Ən müasir yol-nəqliyyat infrastrukturu yaradılır və bu istiqamətdə irimiqyaslı layihələr həyata keçirilir, o cümlədən Bakıda, eləcə də regionlarda kənd və qəsəbələri birləşdirən yolların, yaşayış məntəqələrinin daxili yolları əsaslı təmir olunur. Bütün bu işlərdə, təbii ki, avtomobil yolları işçilərinin böyük əməyi var. Bunun nəticəsidir ki, Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı sərəncamla hər il fevralın 22-si avtomobil yolları işçilərinin peşə bayramı kimi qeyd olunur. Artıq 17 ildir bu bayramı qeyd edən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) kollektivi ölkənin ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının, körpülərin, tunellərin və yol qurğularının, həmçinin paytaxtın prospekt və küçələrinin vəziyyətinə nəzarətin həyata keçirilməsi, qorunub saxlanılması, layihələndirilməsi, tikilməsi, cari, orta və əsaslı təmiri və bərpası işlərini yerinə yetirir.

Yol infrastrukturunun yenilənməsi Prezident İlham Əliyevin diqqətdə saxladığı əsas sahələrdən biridir. Dövlət başçısının birbaşa tapşırıq və sərəncamları əsasında respublikanın avtomobil yollarının inkişafı istiqamətində çox mühüm layihələr həyata keçirilir. Təsadüfi deyil ki, ölkəmizdə XIX əsrdən başlayan yol tikintisinin ən möhtəşəm inkişaf dövrü məhz son 20 ilə təsadüf edir. Bu müddətdə yol infrastrukturu həm yenilənmiş, həm də genişlənmişdir. Bakının müasir yol infrastrukturunun yaradılması istiqamətində atılan addımlar da son iki onillikdə qazanılan uğurlardandır. AAYDA-nın məlumatına görə, 2004-2024-cü illərdə Azərbaycanda 20267 kilometr avtomobil yolu, prospekt və küçələr yenidən qurulmuş, tikilmiş və təmir olunmuşdur. Eləcə də 727 körpü və yol ötürücüsü, 73 avtomobil tuneli, 163 yeraltı və yerüstü piyada keçidi inşa edilmişdir.




Regionlarda yerli əhəmiyyətli, o cümlədən kənd yollarının müasir standartlar səviyyəsində qurulmasına illər əvvəl başlanılmışdır. İndiyədək Prezident İlham Əliyevin imzaladığı sərəncamlar əsasında yerli əhəmiyyətli və kənd yollarının yenidən qurulmasına böyük həcmdə maliyyə vəsaiti yönəldilmiş, geniş və müasir yollar salınmışdır. Bölgələrdə büdcə vəsaitləri hesabına qurulan həmin yollar regionlarda qeyri-neft iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafına güclü təkan vermişdir. Bu, həm də bölgələrdə yaşayan insanların gündəlik həyatını yüngülləşdirmiş, gediş-gəlişlərini asanlaşdırmışdır.

Qarabağ və Şərqi Zəngəzurda da yol infrastrukturu layihələrinin icrası uğurla davam edir. Regionda ötən 4 ildə çoxsaylı yolların təmiri və tikintisi başa çatdırılmışdır. Onların əksəriyyətinin açılışında dövlət başçısı iştirak etmişdir. Böyük Zəfərdən dərhal sonra məcburi köçkün soydaşlarımızın doğma yurd yerlərinə qayıdışını tez və layiqli təmin etməyi hədəfləyən qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpasına ən zəruri infrastruktur quruculuğu ilə start vermişdir. Bu, Zəfər yolu adlanan Füzuli-Şuşa avtomobil yolundan başlanmışdır. Füzuli şəhərindən Şuşa şəhərinə birbaşa avtomobil yolunun təməli 2020-ci il noyabrın 16-da qoyulmuşdur. Bir il sonra - noyabrın 7-də Prezident İlham Əliyev Zəfər yolunun açılışını etmişdir.

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərin bir hissəsi dağlıq relyefə malikdir. Yol olmazsa, Kəlbəcərin, Laçının bir sıra yaşayış məntəqələrinə qış aylarında getmək mümkün deyil. Bərpa proqramı çərçivəsində layihələndirilən yeni yollar işğaldan azad olunmuş ərazilərə qış aylarında da rahat gediş-gəlişi təmin edir. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə müxtəlif istiqamətlərdə çəkilən yollar həm iqtisadi, həm sosial, həm də hərbi baxımdan böyük önəm daşıyır. AAYDA-ya istinadən deyə bilərik ki, Qarabağ və Şərqi Zəngəzurda "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində və dövlət başçısının sərəncamları əsasında 44 avtomobil yolu layihəsinin tikintisi yerinə yetirilir. İşğaldan azad edilmiş ərazilərdəki avtomobil yolları üzərində ümumi uzunluğu 70,8 kilometr olan 45 tunel, ümumi uzunluğu 9581,6 metr olan 447 körpü və ümumi uzunluğu 3875 metr olan 16 viaduk inşa edilir. İndiyədək uzunluğu 59,6 kilometr olan 28 tunelin, uzunluğu 8339,1 metr olan 392 körpünün və uzunluğu 1695 metr olan 9 viadukun tikintisi başa çatıb.

İnsanlar və ölkələr arasında ünsiyyət həm də yoldan başlayır. Dünyanın hər bir coğrafiyasından keçən yollar xalqlar arasında körpü olmaqla yanaşı, onların münasibət qurmalarında da rol oynayır. Bu yolların "baş"ı nələr çəkməyib? Tarixin müxtəlif dönəmlərində müharibələr, işğallar, təbii fəlakətlər, süni dağıntılar nəticəsində dağılıb, keçilməz olub, başqa səmtə yön alıblar. Amma elə yollar olub ki, heç zaman "yol"undan dönməyib, öz səmtində qalıb. 30 il başı bəlalar çəkmiş, düşmən tapdağında inləmiş Qarabağ yolları kimi. İndi bu yollar təzələnir, yenidən çəkilir, təzədən qurulur. Və bu işlərdə avtomobil yolları işçilərinin əməyini dəyərləndirməmək mümkün deyil.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# DƏYİŞƏN REALLIQLAR, DƏYİŞMƏZ MARAQLAR



## Azərbaycan mənliyini qoruyan, milli mənafeyini cəsarətlə müdafiə edən, öz iradəsini açıq şəkildə ortaya qoyan dövlətdir

Xalqın və dövlətin maraqlarını müdafiə etmək biz jurnalistlər üçün heç də həmişə asan olmayıb.

Güclülərlə hesablaşmalı olmuşuq.

**Bəzən əsl həqiqəti olduğu kimi deyə bilməmişik.**

**Mövcud reallıqları, qüvvələr nisbətini nəzərə almaq məcburiyyətində qalmışıq.**

*İçimizdən gələn sərt ifadələri yumşaq "diplomatik" deyimlərlə əvəz etmişik.*

* Çünki qaş düzəltdiyimiz yerdə göz çıxarmaqdan qorxmuşuq.

* Çünki uzun müddət özümüzdən qat-qat güclülərlə mübarizə aparmalı olmuşuq.

* Çünki aramızda naqislərin olduğunu, arxadan da zərbə vurulacağını düşünmüşük.

*Gözləmişik!*

*Dözmüşük!*

*Dərdimizi içimizdə çəkmişik!*

**Dünyanın düzələcəyinə, bizim də güc sahibinə çevriləcəyimizə inanmışıq!**

**İnanmışıq ki, vaxt gələcək önümüzdə elə bir rəhbər, elə bir sərkərdə olacaq ki, biz ona güvənərək gücümüzü ortaya qoyacaq, arxalı və quduz düşmənə qalib gələrək qisasımızı alacaq, torpaqları murdar ləpirlilərdən təmizləyə biləcəyik!**

*Bəlkə də özümüzü belə bir möcüzənin baş verəcəyinə inandırmağa çalışmışıq!*

* Görünür Tanrı səsimizi eşitdi!

* Görünür Tanrı dualarımızı qəbul etdi!

* Görünür Tanrı da belə haqsızlıqlara dözməyərək bizə müdrik rəhbər, qətiyyətli və uzaqgörən siyasətçi, qəhrəman və cəsarətli sərkərdə qismət edərək bütün əzab və iztirablarımıza birdəfəlik son qoydu, ən müqəddəs arzularımıza qovuşdurdu!

❖ ❖ ❖

**İnsanlar da, hətta dövlətlər də, adətən, gücləri çatmayan güclə hesablaşmaq məcburiyyətində qalırlar.**

Əks halda...

XI qızıl ordu müstəqilliyin dadını cəmi 23 ay görmüş Azərbaycan Xalq Cümhuriyyətini işğal etdi!

Hələ ordu quruculuğunu tam başa çatdırmamışdıq!

Üstəlik, Qarabağda aranı qəsdən qarışdıran erməniləri sakitləşdirmək üçün olub-qalan hərbi hissələrin əsas qismini ora göndərmişdik.

Odur ki, Azərbaycan parlamenti son iclasında hakimiyyəti ordu sahibinin nümayəndələrinə döyüşsüz təhvil vermək barədə qərar qəbul etdi.

Amma yenə itkilərdən yayınmaq mümkün olmadı.

Repressiya maşını işə salındı, insanlar mal-mülk sahibi olduqlarına görə amansızlıqla cəzalandırıldılar, təkcə varidatları əllərindən alınmadı, həm də sürgünə göndərildilər, həbsxanaya salındılar, güllələndilər...

**Ən əsası, millətin qaymaqları məhv edildi və ya sıradan çıxarıldı.**

**Dinə bilmədik, dözdük, yeni quruluşu alqışladıq, onun yaradıcılarını, repressiyanın başında dayananları təriflədik, vəsf etdik.**

*Başqa əlac yox idi.*

*Yetmiş ili belə yola verdik.*

❖ ❖ ❖

Yeni mərhələ "yenidənqurma" adlı oyunla başladı.

SSRİ-nin birinci və sonuncu prezidenti olan M.Qorbaçovun dirijorluğu ilə başlayan bu oyunbazlıqlar mahiyyətdə süquta uğrayan SSRİ adlı qırmızı imperiyanın iflasdan qorunmasına, yaşadılmasına xidmət edirdi.

Heyhat!

**Yenə eyni metodlar işə salınmışdı: məkrli planlar, ögey-doğmalıq, ara qızışdırmaq, qan tökmək, məqsədə zorakılıqla çatmaq...**

*Hər şeyi dərk etsək də, zora zorla cavab vermək iqtidarında deyildik!*

*Odur ki, özümüzü o yerə qoymur, öz aramızda həqiqəti danışsaq da, reallıqda deyiləni edirdik.*

MƏSƏLƏN:

* Yenidənqurmanı oyunbazlıq yox, "dərin islahatlar" adlandırırdıq.

* Ermənistandan vəhşicəsinə, zorla qovulanları qaçqın yox, "yaşayış yerini müvəqqəti tərk etmişlər", didərginlər yazırdıq.

* "Miatsum" bağıran separatçıları ərazi bütövlüyümüzə qəsd edənlər kimi yox, "iqtisadi cəhətdən geri qaldıqlarına görə etiraz edənlər" tək qəbul edirdik.

* Rusiyanın silahları ilə ordu quran Ermənistanı "görmür", həmin silahları götürüb Qarabağda yerli əhaliyə divan tutan "saqqallı"ların, "fədai"lərin dövlətdən "xəbərsiz" özbaşınalıq etdiklərinə "inanırdıq".

* Moskva xüsusi idarəetmə komitəsi yaradaraq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb həmin quruma tabe edəndə, komitəyə isə ermənipərəst emissarını rəhbər qoyanda bunu "mərkəzin bölgədə qayda-qanun yaratmaq istəyi" kimi "başa düşürdük".

**Çünki həmin dövrdə Azərbaycana başçılıq edənlər Bakını tərk edən ermənilərin geri qayıdışından sevinərək xalqdan "muştuluq" istəyirdilər, SSRİ-nin qorunub saxlanılması üçün referendum keçirirdilər.**

Amma Mirzə Ələkbər Sabir demişkən:

*Neyləməli, göz görür, əqlim kəsir,*

*Mən Günəşi göydə dana bilmərəm!*

Sonda bütün bu oyunlar torpaq itkisi ilə başa çatdı.

❖ ❖ ❖

**Qırmızı imperiyadan qurtarıb beynəlxalq aləmin riyakarlıqları ilə üzləşdik.**

Dünyanın seçdiyi yolla getmək üçün bazar iqtisadiyyatı münasibətlərinə keçid etdik.

Vətəndaş cəmiyyəti quruculuğuna, demokratik prinsiplərin bərqərar edilməsinə, mətbuat və söz azadlığının, insan hüquqlarının qorunmasına nail olmaq üçün silsilə tədbirlər görməyə başladıq.

**Təəssüf ki, belə bir məqamda da bizə ögey nəzərlərlə baxmağa adət edənlərdən kömək deyil, ermənipərəst dövlət və beynəlxalq təşkilatların, erməni diasporları tərəfindən rüşvətlə, korrupsiya yolu ilə ələ alınmışların qərəzli, qeyri-obyektiv, şər-böhtan xarakterli düşmənçilik hərəkətləri gördük.**

*ABŞ "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişi qəbul edərək işğalçı Ermənistanı deyil, işğala məruz qalan Azərbaycanı birbaşa dövlət yardımından məhrum edərək, əslində, zərərçəkəni cəzalandırdı.*

Həmin ədalətsizlik bu gün də davam edir!

BMT-nin Təhlükəsizlik Şurası işğalla bağlı qəbul etdiyi 4 qətnamənin otuz il ərzində yerinə yetirilməsinə nail olmasa da, bu ali qurumun elə qərarları oldu ki, mürəkkəbi qurumamış həyata keçirildi.

Avropa İttifaqı və AŞPA daim hadisələrə erməni mövqelərindən yanaşdılar, işğal dövründə bircə dəfə də Qarabağda monitorinq keçirərək məruzə hazırladıb, parlamentdə və assambleyada müzakirəyə çıxarmadılar.

Beynəlxalq hüquq müdafiə təşkilatları söz, mətbuat azadlığından, insan haqlarından danışanda daha çox bizə irad tutmağa çalışdılar, Ermənistan tərəfindən bir milyondan çox azərbaycanlının pozulan hüquqlarını yada belə salmadılar.

ATƏT-in Minsk qrupu isə sülh danışıqlarını məqsədli şəkildə uzadaraq bizim işğalla barışacağımızı zənn edir, heç zaman işğalçı ilə işğala məruz qalan arasında fərq qoymur, erməni vəhşiliyini görməzdən gəlir, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının bərpasına hətta təşəbbüs belə göstərmirdi.

Hər dəfə təmas xəttində atəşkəs pozulanda bunu Azərbaycan tərəfinin üzərinə qoymağa can atır, danışıqların uzanmasını Azərbaycanın irəli sürdüyü şərtlərin "mümkünsüzlüyü ilə" izah etməyə çalışırdılar.

Əslində, bütün bunlar "zəif Azərbaycan"a təzyiqlərin müxtəlif forma və üsulları idi.

❖ ❖ ❖

Təbii ki, Azərbaycan güclənmək üçün bütün vasitələrdən səmərəli istifadə edir, necə deyərlər, zamanı bada vermirdi.

Həm də bütün sahələrdə uğurla irəliləyirdi!

*Transmilli layihələrin bütün əngəllərə baxmayaraq, uğurla reallaşdırılması, milli maraqlara söykənən daxili və xarici siyasət yürüdülməsi, beynəlxalq qurum və təşkilatlarda səmərəli işlər görülməsi, dövlət başçısının təşəbbüsü ilə "hücum diplomatiyası"na keçid, habelə güclü ordu quruculuğu xalqımızı sürətlə məqsədə doğru yaxınlaşdırırdı.*

**Prezident İlham Əliyevin diplomatik məharəti və siyasi fəhmi isə Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə, dost dövlətlərin sayının çoxalmasına münbit şərait yaradırdı.**

BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına uğurlu sədrlik, Qoşulmama Hərəkatına vaxtı uzadılan rəhbərlik, I Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkili, "vaksin millətçiliyi"nin ifşası, TDT-də səmərəli əməkdaşlıq Azərbaycanın dünyada nüfuzunun xeyli artmasına, onun əleyhinə yönəldilən düşmənçilik əməllərinin qarşısının vaxtında alınmasına səbəb olurdu.

**Artıq güclənmiş Azərbaycan ona qarşı yönəldilən heç bir qərəzli hərəkəti və qeyri-obyektivliyi cavabsız buraxmırdı!**

MƏSƏLƏN:

* İqtisadi və hərbi gücü sayəsində 44 gün ərzində Ermənistanı qarşısında diz çökdürməklə ordusunu darmadağın etdi, otuzillik işğala "dəmir yumruq"la son qoydu.

* Hərbi əməliyyatlar və sonrakı dövrdə Fransa dəfələrlə BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə məsələni gündəliyə salmağa cəhdlər göstərsə də, Qoşulmama Hərəkatında rəhbərlik dövründə qazandığımız dostlar buna imkan verməmədilər.

* Avropa İttifaqı özünün "sülh fondu"ndan Ermənistanın hərbi cəhətdən güclənməsinə vəsait ayırdığına görə dövlət başçımız bu qurumu sülh danışıqlarından uzaqlaşdırdı.

* AŞPA ermənipərəst mövqe tutaraq ədalətsiz şəkildə Azərbaycanın bu qurumda səsvermə hüququnu dayandırmaq istəyəndə Azərbaycan nümayəndə heyəti korrupsiyaya söykənmiş bu qərəzli əməli ifşa edərək fəaliyyətini qeyri-müəyyən müddətədək dayandırdığını bəyan etdi.

* ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) Ermənistana 120 milyonluq maliyyə yardımını 250 milyon dollara qaldıranda onun əməllərini ifşa edərək Azərbaycandakı fəaliyyətini dayandırdı, ofisini ölkədən çıxaracağını bəyan etdi.

* Rusiya Azərbaycanın AZAL-a məxsus sərnişin təyyarəsini vuraraq çoxsaylı insan tələfatına yol verməsinə rəğmən məsuliyyətdən yayınmaq, zərəri ödəməmək, üzr istəməmək yolunu tutduqda cavab addımlar atdı:

* Azərbaycan əleyhinə təhqiramiz ifadələr işlədən Rusiya Dövlət Dumasının deputatlarını Azərbaycan üçün arzuolunmaz şəxslər adlandıraraq ölkəmizə girişinə yasaq qoydu.

* Vaxtilə ədalətsiz olaraq Ümumrusiya Azərbaycanlılar Konqresinin fəaliyyəti dayandırılmışdı. Azərbaycan da Bakıdakı "Rus Evi"nin indiyədək qeydiyyatdan keçmədiyini əsas götürərək bağlanması qərarını çıxardı.

**Artıq Azərbaycan heç kəsə onunla zor dilində danışmağa, yuxarıdan aşağı baxmağa yol vermir!**

**Ədalətsizlər, ambisiyalılar və əzələ göstərənlər dərhal cavablarını alırlar!**

❖ ❖ ❖

*Otuz il tarix baxımından elə də böyük müddət deyil!*

*Milyardlarla yaşı olan qos-qoca dünya üçün 30-40 il nədir ki?!*

**Vətən həsrəti ilə yanan, ağır şəraitdə məşəqqətli qaçqın ömrü yaşayanlar üçün isə çox böyük zaman kəsiyidir!**

Bir ictimai-iqtisadi formasiyadan digərinə keçid, yeni münasibətlərin formalaşdırılması üçün də otuz il çox azdır!

*Amma Azərbaycan illərə və aylara baxmadı.*

*Gördüyü işləri ən qısa zaman kəsiyinə sığışdırmağı, mümkün olmayanları belə gerçəyə çevirməyi uğurla bacardı!*

**Bütün bunlara Heydər Əliyev siyasi kursu şərait yaratdı!**

**Bütün bunlara İlham Əliyev uzaqgörənliyi və siyasəti imkan verdi!**

*Nəyi nə vaxt və necə etməyi bacarmaq istedadı dəqiq, uzaqgörən və milli maraqların daim həyata keçirilməsinə şərait yaradan siyasət yürüdülməsini təmin edir.*

**Azərbaycan iqtisadi cəhətdən gücləndikcə siyasi mövqeyi də möhkəmlənir, beynəlxalq nüfuzu yüksəlir.**

* Bu gün Azərbaycan təbii qazı və "Cənub qaz dəhlizi" ilə Avropaya gərəkdir.

* Bu gün Azərbaycan Orta dəhlizi ilə bir çox dövlət üçün faydalıdır.

* Bu gün Azərbaycan Cənubi Qafqazda yaratdığı yeni reallıqlarla bu bölgədə gözü olanları onunla hesablaşmağa vadar edə bilir!

**Azərbaycan Prezidenti İlham Əliyev yeni reallıqlar yaratmaqla bahəm, milli maraqların qorunması və təmini sahəsində də həmişəki kimi israrlı və dönməzdir!**

Azərbaycanı qüdrətli və nüfuzlu edən də məhz bu siyasi kurs, belə qətiyyətli siyasət və möhkəm iradə, dövləti maraqlarının təmininə sədaqətdir!

**Bəxtiyar SADIQOV**

# ATƏT PA-nın komitə müzakirələrində Ermənistan deputatının əsassız iddiaları ifşa olunub

**"Yeni texnologiyalar və sosial media dünya üzrə seçkilərə təsir edib. Məsuliyyətlə istifadə edildikdə, onlar şəffaflığı, vətəndaş iştirakını və daha geniş iştirakçılığı təşviq edərək demokratiyanı gücləndirir. Lakin onlar, həmçinin yanlış məlumat, saxta xəbərlər və ictimai rəyin manipulyasiyası kimi çətinliklər yaradır".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı, Azərbaycanın ATƏT PA-da nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva qurumun qış sessiyası çərçivəsində Demokratiya, İnsan Hüquqları və Humanitar Məsələlər üzrə Ümumi Komitədə "Yeni texnologiyaların və sosial medianın seçkilərə təsirləri" mövzusunda xüsusi müzakirədə çıxışı zamanı deyib.

Sevinc Fətəliyeva bildirib ki, Azərbaycan rəqəmsal platformaların seçkilərdə həm imkanlarını, həm də risklərini tanıyır. Media dəqiq məlumatın təmin edilməsində və açıq siyasi dialoqun asanlaşdırılmasında mühüm rol oynayır. Seçki qanunvericiliyimiz ənənəvi və rəqəmsal mediaya bərabər çıxışı təmin edərək ədalətli rəqabəti təşviq edir. Onun sözlərinə görə, Mərkəzi Seçki Komissiyası (MSK) şəffaflığı artırmaq üçün qabaqcıl texnologiyaları tətbiq edir. Onlayn platformalar seçici qeydiyyatı, prosedurlar və nəticələr barədə real vaxt yeniləmələri təmin edərək ictimai etimadı gücləndirir və gənc seçiciləri cəlb edir.

"Eyni zamanda sosial media manipulyasiya alətinə çevrilib. Sensasion məzmunu üstün tutan alqoritmlər tərəfindən yayılan saxta xəbərlər seçiciləri yanıltmaq və demokratik institutları sarsıtmaq potensialına malikdir. Bununla mübarizə azad sözün qorunması ilə yanaşı, beynəlxalq əməkdaşlıq tələb edir. Azərbaycan rəqəmsal savadlılıq proqramları və qəsdən dezinformasiya yayanlara qarşı hüquqi tədbirlər vasitəsilə yanlış məlumatlara qarşı



fəal mübarizə aparır, əsas azadlıqları qoruyur", - deyən nümayəndə heyətinin üzvü əlavə edib ki, 2024-cü ildə ilk dəfə olaraq, prezident və parlament seçkiləri bütün Azərbaycan ərazisində, o cümlədən işğaldan azad edilmiş bölgələrdə keçirilib. Bu da Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasında tarixi bir mərhələdir.

Mövzu ilə bağlı məruzəçinin hazırladığı sənəddə Azərbaycan haqqında məqamlara cavab olaraq Sevinc Fətəliyeva bildirib: "Seçkilər ölkəmizdə yaxşı qurulmuş prosedurlarla ədalətli şəkildə keçirilir və milyonlarla vətəndaş səsvermə hüququndan istifadə edir. Azərbaycan güclü, aktiv, müstəqil mediaya və ictimai həyata fəal töhfə verən canlı bir vətəndaş cəmiyyətinə malikdir. Əlavə olaraq, Azərbaycan seçkilərdə obyektivliyi qorumaq üçün süni intellektin inteqrasiyası və kibertəhlükəsizlik sahəsində irəliləyişlər əldə edib. Etik süni intellekt tədbirləri və gücləndirilmiş kibertəhlükəsizlik təşəbbüsləri ölkəmizi demokratik proseslərin qorunmasında lider mövqeyinə yüksəldir. Azərbaycan demokratiyanı qorumağa və rəqəmsal dövrdə seçki bütövlüyünü təmin etmək üçün bütün millətlərlə əməkdaşlığa sadiqdir".

Komitə iclasındakı çıxışında Sevinc Fətəliyeva, həmçinin Ermənistan parlamentinin deputatı Lilit Galstyanın müzakirələrdən kənar, Azərbaycana qarşı əsassız iddialarına da cavab verib. Belə ki, erməni deputat çıxışında hazırda Bakıda məhkəməsi keçirilən Azərbaycan dövlətinə və xalqına qarşı ağır cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxsləri, xüsusilə Ruben Vardanyanı "hərbi əsir" kimi təqdim edərək onların məhkəməsinin obyektivliyi ilə bağlı tədbir iştirakçılarında yanlış rəy formalaşdırmağa çalışıb. Sevinc Fətəliyeva isə erməni deputatın yalanlarını ifşa edərək deyib: "Azərbaycanın milli qanunlarına və beynəlxalq konvensiyalara uyğun olaraq, öz ərazisində cinayətlərdə, o cümlədən müharibə cinayətləri və terrorizmdə ittiham olunan şəxsləri araşdırmaq və mühakimə etmək suveren hüququ var. Ruben Vardanyan və ölkəmizin Qarabağ bölgəsindən olan digər 15 şəxs terrorizm, soyqırımı və müharibə cinayətləri ilə ittiham olunurlar. Azərbaycan bu məhkəmə proseslərini şəffaf şəkildə və hüquqi standartlara uyğun aparır".

# Konstitusiya və Suverenlik İli 2025

# Suverenliyimizə atəş açılan ilk gün

## 1988-ci il fevralın 22-də Azərbaycan ədalətsiz savaşla üzləşdi

**"Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Azərbaycan xalqı bu qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

2023-cü ildə Xankəndidə Zəfər meydanında Azərbaycan bayrağını qürur hissi ilə əbədi dalğalandıran Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, bu tarixi hadisə Azərbaycan xalqının onilliklərin o üzündən başlayan və ərazi bütövlüyümüzün, suverenliyimizin təmininə uzanan keşməkeşli yolunun məntiqi zirvəsi, Qarabağ Azərbaycandır həqiqətinin dünyaya qəti bəyanı idi.

Bununla ikiəsrlik erməni şovinizminə, dünya erməniçiliyinə bir daha özlərinə gələ bilməyəcəkləri sarsıdıcı zərbə vurulmuş, sərsəm "miatsum" ideyası birdəfəlik cəhənnəmə vasil edilmişdi. Çünki düz 35 il əvvəl erməni faşistləri məhz bu meydanda ayağa qalxaraq Azərbaycan xalqına qarşı cinayət əməllərinə, qətliamlara, soyqırımlarına start vermişdilər.

Elə buna görə də Qarabağda, Xankəndinin Zəfər meydanında üçrəngli, ay-ulduzlu bayrağımızın ucaldılması həm də torpaqlarımızın bütövlüyü və suverenliyi uğrunda şəhid olan oğul və qızlarımızın ruhunun şad olması demək idi.




### 100 il əvvəlin fitnəsi

2023-cü il sentyabrın 20-nə - suverenliyimizin təmininə qədər isə Azərbaycan xalqı olaraq düz 100 illik bir yol qət etmiş, çox faciələrə tuş gəlmişdik.

Sovet hakimiyyəti qurulduqdan sonra, 1923-cü ildə Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradılmışdı. Əvvəlcə Şuşa şəhəri, sonradan isə daşnak, xalqımızın qanına susamış Stepan Şaumyanın adı verilən və əhalisinin böyük əksəriyyəti azərbaycanlılar olan Xankəndi şəhəri qurumun mərkəzi olmuş, kənardan gəlmələrin hesabına getdikcə burada ermənilərin sayı çoxalmağa başlamışdı. Beləliklə, bu ərazidə bütün idarəetmədə rəhbərlik ermənilərə məxsus olmuş, azərbaycanlılar sıxışdırılmağa başlanmışdı. Əslində, DQMV-nin yarandığı vaxtlardan etibarən zaman-zaman Ermənistana birləşdirilməsi məsələsinə cəhd edilmiş, amma bu, 1988-ci ildə daha açıq müstəviyə keçirilmişdi. Çünki 1987-ci ildə Ulu Öndər Heydər Əliyev vəzifəsindən kənarlaşdırılmışdı. Bunu fürsət bilən erməni millətçiləri dərhal məsələ qaldırmışdılar ki, DQMV Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilsin. Bu məsələni ilk dəfə erməni millətçisi A.Aqambekyan Fransa qəzetlərinin birinə müsahibəsində söyləmişdi və Azərbaycanın Qarabağ bölgəsinin iqtisadi cəhətdən Ermənistana birləşdirilməsinin daha faydalı olacağını bildirmişdi.

Təbii ki, DQMV-də sosial-iqtisadi geriliyin olması ilə bağlı erməni millətçiləri tərəfindən ortaya atılan iddia tamamilə yalan idi. Çünki həmin vilayət o dövrdə Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri olub və buna xüsusilə Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə nail olunub.

1969-cu ildə Ulu Öndər ilk dəfə Azərbaycanda hakimiyyətə gələndən sonra Qarabağda milli zəmində bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin inkişafı üçün xeyli sosial-iqtisadi layihələr gerçəkləşdirilmişdi. Məsələn, 1976-cı ildə Sərsəng, Suqovuşan su anbarları inşa edilmişdi və bunlar bölgədə kənd təsərrüfatının inkişafına birbaşa təkan olmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkilməsi, burada ali məktəbin yaradılması, fabriklərin açılması və sair də bu qəbildən olan mühüm işlər idi. Bütün bunlar isə erməni millətçilərinin ortaya atdığı iddiaların arxasında, əslində, başqa məkrli planların olduğunu gün kimi ortaya qoyurdu.

### Münaqişənin ilk qurbanları

1988-ci il fevralın 13-dən Xankəndinin mərkəzi meydanında ermənilərin fasiləsiz mitinqləri başlamış və proses fevralın 20-nə qədər kütləvi şəkildə davam etdirilmişdi. Fevralın 20-də isə ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq azərbaycanlı deputatların iştirakı olmadan qərar qəbul etmişdilər ki, vilayət Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir.

Bu bədnam qərara və ermənilərin azğın davranışlarına görə etirazlarını bildirmək üçün 1988-ci il fevralın 22-də Əsgəran rayonu ərazisində Ağdam rayonunun sakinləri dinc nümayiş keçirmişdilər. Yürüş zamanı ermənilərin atəş açması nəticəsində Ağdam şəhərinin sakinləri - iki azərbaycanlı gənc Əli Hacıyev və Bəxtiyar Quliyev qətlə yetirilmişdi.

Beləliklə, Əli Hacıyev və Bəxtiyar Quliyev Ermənistanla Azərbaycan arasında münaqişənin ilk qurbanları oldular. Bu, qanlı hadisənin törədildiyi 1988-ci il fevralın 22-si tarixi, həm də Azərbaycanın suverenliyinə açılan ilk atəş günü oldu. Çünki məhz həmin tarixdən sonra erməni faşistləri daha geniş əl-qol açaraq xalqımızı deportasiyalarla, kütləvi qətllərlə, soyqırımları ilə yenidən üz-üzə qoydular, torpaqlarımıza açıq şəkildə iddia etməyə, ardınca isə işğala başladılar. Təkcə 1980-ci illərin sonlarında Qərbi Azərbaycandan - tarixi yurdlarından üç yüz mindən çox soydaşımız qaçqın düşüb. Həmin dövrlərdə mərkəzi hakimiyyətin erməni millətçilərinin bu cinayət əməllərinə göz yumması ilə yanaşı, onlara hər cür dəstək göstərməsi də hadisələrin Azərbaycan və azərbaycanlılar üçün daha faciəvi hal almasına gətirib çıxardı. Əlbəttə ki, ölkəmizə qorxaq, səriştəsiz, ən əsası milli mövqeyi olmayan şəxslərin rəhbərlik etməsi birinci səbəblərdən idi. Azərbaycan müstəqilliyini yenicə əldə etdikdən sonra isə Ermənistan respublikamıza qarşı işğalçı müharibəyə başladı. O dövrdə yenə də Azərbaycanda "kreslo" uğrunda torpağını belə satmağa hazır olan antimilli qüvvələrin hakimiyyətdə olması fəlakətlərimizin üzərinə daha dəhşətlilərini əlavə etdi. Təcavüzkar müharibə nəticəsində ərazilərimiz bir-bir işğal olundu, bir milyona yaxın vətəndaşımız didərgin salınaraq məcburi köçkünə çevrildi. Həmin dövrdə Xocalıda və daha neçə-neçə yurdlarımızda xalqımıza qarşı soyqırımları, qətliamlar törədildi.

### Erməni faşizminin başı əzildi

Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olundu və uzun illər ərzində işğal altında saxlanıldı. Bununla da ölkəmizə xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vuruldu.

Təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktları bu günlərdə keçirilən erməniəsilli təqsirləndirilən şəxslərin məhkəməsində də açıqlanıb.

Məlum olub ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlığına ağır və əqli qabiliyyətinə ciddi zərər vurmaq məqsədilə rayona və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıların baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, cinayətkar fəaliyyətinin qarşısının alınması üçün zərərsizləşdirilmiş erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa da fərq qoymadan qəddarlıqla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxs qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

1988-2024-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 18850 nəfər qəsdən öldürülüb. Sözügedən illər ərzində 3493 nəfər mülki, 15 min 357 nəfər hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb, 4435 nəfər mülki, 51 min 803 nəfər hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

1988-2023-cü illərdə ermənilər tərəfindən Azərbaycanın Qarabağ bölgəsi və ətraf ərazilərində yüzdən çox fərqli-fərqli işgəncə metodları tətbiq edilməklə 1698 azərbaycanlı girov götürülüb.

Əsir və girov götürülən 1284 dinc sakindən 122-i mülki sakin, əsir götürülmüş 414 nəfər hərbi qulluqçudan isə 48 nəfəri, ümumilikdə 170-i işgəncələr və qeyri-insani rəftar tətbiq edilməklə qəsdən öldürülüb.

Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzlə üz-üzə qaldığı həmin bədnam tarixdən - 1988-ci il fevralın 22-dən 2023-cü il sentyabrın 20-nə qədər ötən 35 illik zaman ərzində ölkəmiz, xalqımız çox faciələrlə üzləşdi, dəhşətli ağrı-acılar yaşadı, amma əyilmədi, sınmadı, haqq mübarizəsindən bir addım belə çəkilmədi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 2020-ci ildə Qarabağda parlaq Zəfərlə torpaqlarını işğaldan qurtardı, ərazi bütövlüyünü, suverenliyini təmin etdi, Konstitusiyamız bütün ərazilərimizdə qüvvəyə mindi. "Dəmir yumruq" erməni faşizminin başını birdəfəlik əzdi.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycanın təbii sərvətləri xalqın rifahına xidmət edir

**Ölkəmizin son onilliklər həyata keçirdiyi nəhəng neft, qaz və ixrac layihələri beynəlxalq aləmin diqqət mərkəzindədir. Məhz bu layihələrlə Azərbaycan Avropanın enerji xəritəsini dəyişə bilib. Ən önəmlisi isə budur ki, Azərbaycan dövləti həmin layihələrin reallaşması nəticəsində əldə olunan gəlirlərdən səmərəli şəkildə istifadə edərək digər sahələrdə mühüm işlər həyata keçirir, dünyanın hər yerinə yollar çəkir, dəhlizlər açır, körpülər salır.**




Azərbaycanda neft kapitalı insan kapitalına çevrilib. Təəssüf ki, təbiətin bizə böyük səxavətlə bəxş etdiyi bu sərvətdən əsrlər boyu lazımınca faydalana bilməmişik. Bu yalnız ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mümkün olub.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasının 14-cü maddəsində deyilir: "Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur". Ölkəmizdə iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi isə Ana qanunumuzun 15-ci maddəsinin birinci bəndi ilə təsbit olunub.

Məlumdur ki, ölkəmizin adı keçmiş zamanlardan dünya tarixinə neftin vətəni kimi həkk edilib. İlk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Bakıda çıxarılıb. Əlbəttə, o zaman belə bir sərvət böyük ölkələrin iri kapitalistlərinin diqqətini çəkməyə bilməzdi. Odur ki, həmin dövrlərdə neft maqnatları Azərbaycana axışıblar. Nobellər, Mantaşevlər, Rotşildlər torpağımızın qara qızıl "qan"ını sovurub aparmaq üçün özlərini oda-közə vurublar. Sovet dönəmində də Azərbaycanda böyük həcmdə neft çıxarılıb. Lakin keçmiş SSRİ-nin planlı təsərrüfatı, ittifaqa daxil olan bütün respublikaların ümumi büdcədən eyni dərəcədə faydalanmasına əsaslanan qaydaları bu zənginlikdən xalqımızın lazımınca bəhrələnməsinə aman verməyib.

Müstəqilliyini bərpa etdikdən sonra isə ilk illər Azərbaycan üçün çətin keçdi. Ölkəni idarə edənlərin məsuliyyətsizliyi və səriştəsizliyi ucbatından neft-qaz sənayesi də tənəzzülə uğradı. Dönüş yalnız Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra baş verdi. 1994-cü ildə dünyanın ən tanınmış neft şirkətləri ilə "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi üçün saziş imzalandı. Azərbaycan iqtisadiyyatının "qəddini düzəldən", ölkənin gələcək inkişafına təkan verən bu möhtəşəm kontrakt "Əsrin müqaviləsi" adını aldı. "Əsrin müqaviləsi" ölkəmizin yeni neft-qaz strategiyasının əsasını qoydu və təsdiqlədi ki, müstəqil Azərbaycanın xalqı suveren hüquqlara malikdir və öz sərvətinin sahibidir.

Yeni neft strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyev o zaman uzaqgörənliklə demişdir: "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün əsas amildir". Bu sərvətlərin ali məqsədlərə yönəldilməsi üçün Ulu Öndər "Əsrin müqaviləsi" imzalandıqdan 5 il sonra - 1999-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunu (ARDNF) yaratmışdır.

Çıxışlarının birində Ümummilli Lider bu məsələni belə şərh etmişdir: "Sual olunur nə üçün Azərbaycan, Bakı dünyanın neft və qaz mərkəzlərindən biri kimi indiyədək bugünkü qədər tanınmamışdı? Səbəbi ondan ibarətdir ki, birincisi, Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir və dünya birliyində özünə yer tutan müstəqil dövlət kimi təbii sərvətlərinin sahibi olmuşdur, onlardan istifadə edilməsi üçün lazımi yeni tədbirlər görməyə başlamışdır. İkincisi, ondan ibarətdir ki, müstəqil Azərbaycan, onun dövləti öz iqtisadiyyatını inkişaf etdirmək və böyük təbii sərvətlərindən, xüsusən neft və qaz sərvətlərindən istifadə etmək üçün yeni neft strategiyası işləyib hazırlamış və onu həyata keçirməyə başlamışdır".

Prezident İlham Əliyev də bu barədə çox dəqiq və dəyərli fikir söyləmişdir: "Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik".

Müstəqilliyimizin bəhrəsi olan qlobal layihələr, o cümlədən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri artıq təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirir. Öz yaradıcısının - Heydər Əliyevin adını şərəflə daşıyan BTC neçə-neçə yeni layihəyə yol açıb. Prezident İlham Əliyev Azərbaycanın neft-qaz strategiyasını uğurla davam etdirərək və günün tələbləri baxımından inkişaf etdirərək ölkəmizi yeni zirvələrə çatdırıb. Azərbaycan "Cənub qaz dəhlizi" kimi nəhəng bir layihənin reallaşmasının təşəbbüskarı və lideri kimi çıxış edib, onu müvəffəqiyyətlə yekunlaşdırıb.

"Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq. Bu layihə ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirir. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyətini daha da artırır. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edir.

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycanın təbii resursları xalqımızın milli maraqlarına xidmət edir. Azərbaycan neftdən və qazdan gələn gəlirləri eyni zamanda nəqliyyat sektoruna yönəldib. Bakı-Tbilisi-Qars dəmir yolu kimi əhəmiyyətli bir layihəni maliyyələşdirib. Bunlar Azərbaycanı nəinki bölgədə, bütün Avrasiya məkanında nəqliyyat mərkəzinə çevirib. Görülmüş işlər indi ölkəmizin ərazisindən böyükhəcmli yüklərin Şərqdən Qərbə, Qərbdən Şərqə daşınmasına imkan verir.

Neftdən əldə olunan gəlirlər, o cümlədən Azərbaycan Ordusunun gücünü, qüdrətini artırıb, silah-sursatla təchizatını yüksək səviyyəyə çatdırıb. Dövlət başçısı bu barədə belə demişdir: "Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Azərbaycan Ordusunun işğalçı Ermənistana qarşı apardığı müharibədə, düşmən tapdağında olan torpaqlarımızı azad etmək üçün döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıq, qazanılan böyük qələbə deyilənlərin əyani təsdiqidir. Bu gün Azərbaycanın güclü iqtisadiyyatı və güclü ordusu var. Neft gəlirləri, eləcə də ölkə qarşısında dayanan digər ümdə problemlərin həllinə, təhsilin, səhiyyənin inkişafına, infrastrukturun təkmilləşdirilməsinə, geniş quruculuq işlərinə və s. yönəldilir. Təsadüfi deyil ki, ölkəmizin sosial-iqtisadi sahədə qazandığı nailiyyətlər nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən dönə-dönə etiraf olunur. Azərbaycanın adı həmin qurumların reytinq cədvəllərində ildən-ilə daha irəliyə çəkilir. Dövlət başçısı bunu belə vurğulayır: "Azərbaycanda neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır".

Xoşbəxt o xalqdır ki, vətəninin yeraltı və yerüstü sərvətləri onun bugünkü xoş güzəranına və daha işıqlı sabahına xidmət edir. Azərbaycan dövləti öz əməli fəaliyyətində, həyata keçirdiyi islahatlarda bu məqsədi rəhbər tutur. Prezidentimizin dediyi kimi: "Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir".

***Flora SADIQLI, "Azərbaycan"***



**"Böyük qayıdış" proqramı sürətlə icra olunur**



# Hər zaman xalqının yanında



## Xilaskar Lider İlham Əliyev keçmiş məcburi köçkünlərin qayıdış sevinclərini öz evlərində onlarla birlikdə yaşayır

**"...Ali Baş Komandan kimi bütün əməliyyatlara özüm rəhbərlik etmişəm və yenə də deyirəm, mənim üçün Prezident kimi bu vəzifədən daha ümdə vəzifə olmayıb heç vaxt. Bütün prezidentlik dövrümü də buna həsr etmişəm ki, biz torpaqlarımızı azad edək, işğalçıları torpağımızdan qovaq, haqq-ədaləti və milli ləyaqətimizi bərpa edək. Buna da nail olduq".**

Fevralın 19-da Xocalı rayonunun Ballıca kəndinə köçən bir qrup sakinlə görüşü zamanı dilə gətirdiyi kimi, ötən iki onillik dövr ərzində Prezident İlham Əliyevin başlıca vəzifəsi Qarabağı azadlığına qovuşdurmaq, vətəndə qəribçilik çəkən yüz minlərlə keçmiş məcburi köçkünün həsrətinə son qoymaq olub. Elə həyata keçirdiyi daxili və xarici siyasət, aldığı mühüm qərarlar, milli maraqlarımızın təmini istiqamətində atdığı qətiyyətli addımlar da yalnız bu istiqamətə yönəlib.

İndi Şuşada, Laçında, Zəngilanda, Cəbrayılda, Füzulidə, Xocalıda... bu yerlərin əzəli sakinlərinin öz evlərində Prezident İlham Əliyevi əziz qonaqları kimi qarşılamaları, xoşbəxtliklərini sevinc gözyaşları ilə bölüşmələri Xilaskar Lider olaraq İlham Əliyevin qarşısına qoyduğu müqəddəs hədəflərə çatdığını göstərən ən riqqətləndirici nümunədir...

### Ən xoşbəxt anların təzahürü

Bir Prezident, Ali Baş Komandan, ən ümdəsi, Azərbaycan xalqının vətənpərvər oğlu olaraq İlham Əliyev daim xalqının təəssübünün keşiyində durub, bu uğurda dünya güclərini qarşısına almaqdan belə çəkinməyib. Təbii ki, çıxdığı bu haqq yolunda çətin mübarizələrlə, ağır sınaqlarla, həlli mümkünsüz problemlərlə, dünyanın əyilmiş nizamı, qərəzli yanaşmaları ilə də çox qarşılaşıb. Amma əzmi, qətiyyəti bir də xalqına olan tükənməz sevgisi ilə Prezident İlham Əliyev bütün bu keşməkeşlərdən mətanətlə adlaya bilib. Ürəyində bir gün mütləq Qarabağın və Şərqi Zəngəzurun azadlığa qovuşdurulacağının böyük ümid və inamı olub.

Torpaqlarımızın işğal altında olduğu illərdə keçmiş məcburi köçkünlərin problemlərinin həll olunması, onların mənzil şəraitlərinin yaxşılaşdırılması istiqamətində tapşırıqlar verən, mühüm işlər həyata keçirən dövlətimizin başçısı İlham Əliyev diqqəti, qayğısı ilə hər zaman bu insanların yanında olduğunu yaxından hiss etdirib. Bayramlarda, özəl günlərdə, hansısa tədbirlərdə, hətta adi günlərdə belə keçmiş məcburi köçkünlərlə görüşmək, onların problemləri ilə şəxsən maraqlanmaq Prezident İlham Əliyevin, sözün əsl mənasında, ənənəsi olub. Yurdlarından zorla didərgin salınan vətəndaşlarımızla olan bütün görüşlərində isə Prezident İlham



Əliyev bu insanların mütləq öz yurdlarına qayıdacağını qətiyyətlə bildirirdi.

Buna görə idi ki, şanlı Qarabağ Zəfərindən cəmi bir gün sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə də məxsusi olaraq xalqımızın - keçmiş məcburi köçkünlərin xoşbəxtlik duyğularını böyük qürur hissi ilə dilə gətirmişdi: "Mən bu dönəmdə hər gün minlərlə məktub alıram. Sevinclə dolu, minnətdarlıqla dolu, qürur hissi ilə dolu məktublar məni doğrudan da çox duyğulandırır. Bu gün bizim televiziya kanallarımız, internet saytlarımız uzun illər məcburi köçkün həyatı yaşamış insanları, onların duyğularını, onların sözlərini ictimaiyyətə təqdim edəndə onların ən çox sevdiyi və dediyi ifadəni mən bildirmək istəyirəm. Deyir ki, artıq mən qaçqın deyiləm. Bilirsiniz bu, nə deməkdir? Bu, bəlkə də ən xoşbəxt anların təzahürüdür, həm bu insanların həyatında, həm bizim hamımızın həyatında və mənim həyatımda".

### Bu yerlərə yenidən həyat qayıdır

Qarabağ və Şərqi Zəngəzura yeni həyat qaytaran Prezident İlham Əliyev mütəmadi olaraq o ərazilərə səfər edərək görülən işlərlə yaxından tanış olur, tapşırıqlarını verir, açılışlar edir, yeni təməllər qoyur. Qurucu Lider İlham Əliyevin yenidən bünövrəsini qoyduğu şəhər, qəsəbə və kəndlərimizə bir-bir qayıdış köçləri yola salınır.

İndi keçmiş məcburi köçkünlərlə doğma yurdlarında görüşən Prezident İlham Əliyev onların qayıdış sevinclərini fərəhlə bölüşür. Vətən nisgili, torpaq həsrəti olmayan bu görüşlərdə yalnız yurda dönüş bəxtəvərliyindən qürurla bəhs olunur.

Fevralın 19-da Xocalının Ballıca kəndinə köçən bir qrup sakinlə keçirilən görüşdə olduğu kimi.

Ötən ilin dekabrında ilk qayıdış köçü həyata keçirilən Ballıca kəndində artıq 460 keçmiş köçkün yerləşib. Qarabağa növbəti səfəri zamanı Ballıca kəndində həmin sakinlərlə görüşən və onlar üçün yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevlə keçmiş məcburi köçkünlər arasında səmimi söhbət əsnasında duyğulu anlar yaşandı.

Dədə-baba yurdlarından zorla qovulmuş, faciələrə tuş gəlmiş, məcburi köçkün kimi maddi-mənəvi əzablarla üzləşmiş bu sakinlər onları bu xoşbəxt günlərə qovuşduran Xilaskar Liderləri İlham Əliyevə sonsuz minnətdarlıqlarını çatdırdılar.

Sakinlərdən biri qəlbindən keçən hissləri bu sözlərlə dilə gətirdi: "Mən ürəyimdə deyirdim ki, İlahi, görəsən qismət olar ki, gedək Ballıcadan keçək, Vətənə baxaq? Ay Allah, bu günü bizə nəsib eləyənə qurban olum. Bu, böyük qələbədir, böyük qələbədir".

Ballıca sakinlərindən birinin dövlətimizin başçısını salamlayaraq, "Allah Sizi qorusun. Ali Baş Komandan, "dəmir yumruq" buradadır" deməsi və Prezident İlham Əliyevin gülərək "Maşallah, sənin də yumruğun yaxşıdır", - deyə cavab verməsini əks etdirən kadrlar sosial şəbəkələr və media vasitəsilə bir anda bütün ölkəyə yayıldı, hər kəs tərəfindən böyük maraqla qarşılandı.

Çünki Xocalının Ballıca kəndində yaşanan bu səmimi və maraqlı dialoq, həm də Azərbaycan xalqının, dövlətinin, ordusunun birgəliyinin rəmzinə çevrilən "dəmir yumruğ"un düşmənlərimizə qarşı hər zaman hazır vəziyyətdə olduğunun ismarışını verirdi.

Prezident İlham Əliyev bir daha vurğuladı ki, torpaqlarımızı işğalçılardan azad etmək bizim borcumuz, milli ideyamız idi: "Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğalına son qoyuldu, 2023-cü ildə antiterror tədbirləri nəticəsində suverenliyimiz tam təmin edildi. Azərbaycan bayrağının qürurla dalğalandırıldığı Qarabağ və Şərqi Zəngəzurda indi həyat bərpa edilir. Əzəli sakinləri yurdlarına qovuşdurulur.

Bütün bu tarixi qələbələr isə Prezident İlham Əliyevin qətiyyəti, əzmi, xalqına, torpağına olan tükənməz sevgisi sayəsində qazanılıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Böyük qayıdışın Cəbrayıl mərhələsi davam edir









**İşğaldan azad edilmiş torpaqlarımızın dirçəldilməsi, bərpa edilərək yenidən qurulması bu gün dövlətimizin prioritet məsələlərindəndir. Əsas məqsədlərdən biri Qarabağ və Şərqi Zəngəzuru dünyanın ən gözəl guşələrindən birinə çevirmək, onların əzəli sakinlərinin geri dönüşünü təmin etməkdir.**

Elə buna görədir ki, müharibədən qısa müddət keçməsinə baxmayaraq, artıq 2889 ailə - 11585 nəfər dədə-baba yurduna qovuşub. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, Xocalı rayonunun Ballıca kəndində 90 ailə (467 nəfər) məskunlaşıb.

Cəbrayıl şəhəri mütəmadi olaraq qayıdış karvanlarını qarşılayır. Dünən daha 183 nəfər (33 ailə) doğma yurduna qayıdıb. 30 illik nisgilləri sona çatan cəbrayıllılar onları daim qayğıyla əhatə etdiyinə görə Prezident İlham Əliyevə sonsuz təşəkkürlərini bildiriblər.

"30 illik məcburi köçkün həyatımız sona çatır. Nəhayət, kirayədən çıxıb öz evimdə ailəmlə şad-xürrəm yaşayacağam", - deyir keçmiş məcburi köçkün Ruslan Mahmudov. O qeyd edib ki, valideynləri Cəbrayılla bağlı o qədər gözəl xatirələr bölüşüblər ki, indi səbirsizliklə doğma yurd-yuvasına qayıtmaq istəyir: "Mən Cəbrayılda doğulmasam da, ailəm, valideynlərim mənə o qədər gözəl xatirələr danışıblar ki, ora qayıtmağa çox tələsirəm. Təmiz havası, səfalı yerləri ilə könülləri fəth edib Cəbrayıl. Bu günləri bizə yaşatdığı üçün Ali Baş Komandanımıza, müzəffər ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!"

Cəbrayıldan çıxanda 18 yaşı olduğunu deyən keçmiş məcburi köçkün Vəliş İmaməliyev torpağına 50 yaşında qayıdır. O qeyd edib ki, şaxtalı-boranlı hava olmasın baxmayaraq, öz doğma yurduna köçmək üçün gecəni yuxusuz keçirib: "Baxmayaraq ki, hava şaxtalıdır, yer buz bağlayıb, amma Cəbrayıla köçəcəyik deyə gecəni yatmamışam. Səhər tez çıxıb gəlmişəm ki, birdən gecikərəm. Həsrətlə öz doğma yurduma, evimə qovuşmağı gözləyirəm. Bundan fərəhli nə ola bilər, bir məcburi köçkün üçün öz yurduna qovuşmaqdan gözəl bir şey varmı?"

Qeyd etmək lazımdır ki, 2026-cı ilin sonunadək Cəbrayıl şəhərində təqribən 3800 nəfərin, 2040-cı ilin sonuna qədər isə 15 min sakinin yaşayacağı proqnozlaşdırılır. Əhalinin 82 faizinin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18 faizinin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Cəbrayılda da təhlükəsizlik, infrastruktur məsələlərinin həlli, sosial xidmətlərin fəaliyyəti, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələləri əsas götürülür. Bu ərazilərdə bərpa və yenidənqurma strategiyasının əsas məqsədi dayanıqlı iqtisadi inkişafa nail olmaqdır. Şəhərin coğrafi mövqeyi və relyefi də onun yaşıllıqlara qərq olmuş məkan kimi planlaşdırılmasına imkan verib. Baş plana əsasən, şəhər ərazisinin 18 faizi yaşıl zonalardan ibarət olacaq. Həyata keçirilən irimiqyaslı layihələr də göstərir ki, tezliklə bütün Qarabağ və Şərqi Zəngəzur cənnətməkana çevriləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Keçmiş məcburi köçkünlərin peşə bacarıqlarının artırılması məsələləri müzakirə edilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) nümayəndələri ilə görüş keçirilib.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə işğaldan azad edilmiş ərazilərə qayıdacaq keçmiş məcburi köçkünlərin gəlir gətirən sahələr üzrə peşə təlimlərinə cəlb edilməsi istiqamətində birgə əməkdaşlıq perspektivləri müzakirə olunub. Qonaqlara Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planının icrası çərçivəsində Dövlət Komitəsi tərəfindən görülən işlər barədə ətraflı məlumat verilib.

Dövlət Komitəsi sədrinin müşaviri Nəsimi Nərimanov bildirib ki, Qarabağa və Şərqi Zəngəzura qayıdışı başlanmış keçmiş məcburi köçkünlərin məşğulluğu, yeni yaşayış şəraitinə adaptasiyası və iqtisadi fəaliyyətə reinteqrasiyası mühüm vəzifələrdən biridir. O, Dövlət Komitəsi tərəfindən bu istiqamətdə müxtəlif layihələrin icra olunduğunu, geri qayıdan əməkqabiliyyətli şəxslər üçün peşə təlimlərinin və məşğulluğa dəstək tədbirlərinin təşkil edildiyini qeyd edib.

TKTA-nın Hüquq Təminatı Departamentinin direktoru Vüqar Bağırlı isə keçmiş məcburi köçkünlərin kvalifikasiyasının tanınması, onların özünüməşğulluq imkanlarının artırılması, bu sahədə həyata keçirilən tədbirlər, eləcə də peşə təlimlərinə cəlb edilmiş şəxslərin sayı və imtahan prosesi barədə məlumat verib.

Sonra TKTA-nın Qeyri-formal və İnformal Təhsilin Tanınması Şöbəsinin müdiri Mansur Rəhimli təqdimatla çıxış edib. O, ölkəmizdə peşə təhsilinin cari vəziyyəti, həmçinin formal təhsil ala bilməyən, lakin müxtəlif vasitələrlə peşə bacarıqları əldə edən şəxslərin peşəkar fəaliyyətinə dəstək olan "Sənətin varsa, sənədin olacaq" layihəsinə keçmiş məcburi köçkünlərin cəlb edilməsinin əhəmiyyəti haqqında danışıb. TKTA tərəfindən verilən sertifikat və diplomların onların məşğulluq imkanlarının genişləndirilməsinə təsiri vurğulanıb.

Görüşdə keçmiş məcburi köçkünlərin əmək bazarına inteqrasiyası, onların bilik və bacarıqlarının təkmilləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb və bu sahədə əməkdaşlığın vacibliyi qeyd edilib.

*Cəbrayıl sakini:*

# "Mənim üçün həyat dayanmışdı"



**"Cəbrayıldan 35 yaşımda çıxmışdım. Mən oranı tərk edəndən - Cəbrayıl işğal olunandan bəri yaşadığım ömrü həyat hesab etməmişəm. Mənim üçün həyat dayanmışdı. İndi gedirəm Cəbrayılda 36 yaşımı qeyd edəm".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Cəbrayıl şəhərinə köç edən keçmiş məcburi köçkün Fəxrəddin Abbasov söyləyib.

O, həmçinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığını ifadə edib, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Cəbrayıl şəhərinə 33 ailə - 183 nəfər köçürülüb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Paşinyan zahiri görkəmi kimi fikirlərini də tez-tez dəyişir"

### Baş nazirin "konstitusiya islahatları" ilə bağlı açıqlaması başqa məqsədlərə də xidmət edə bilər

**"Nikol Paşinyan Ermənistan konstitusiyasının dəyişdirilməsi təşəbbüsü ilə ilk dəfə 2018-ci ildə çıxış edib. Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsindən və Silahlı Qüvvələrimizin uğurla həyata keçirdiyi antiterror tədbirlərindən sonra Ermənistanın baş naziri "konstitusiya islahatları" mövzusunu bir neçə dəfə gündəmə gətirib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elçin Mirzəbəyli deyib. Deputat xatırladıb ki, Nikol Paşinyan son açıqlamasında yeni konstitusiyanın qəbulu ilə bağlı mövqeyini daha öncəki konstitusiyaların qəbulu prosesinin legitim əsaslara malik olmaması ilə əlaqələndirib. Bu, daha öncəki fikirlərlə müqayisədə tamamilə yeni hesab oluna və açıqlama sahibinə daha geniş manevr imkanları verə biləcək bir yanaşmadır. Ermənistanın baş nazirinin yeni konstitusiyanın qəbul olunmasında, ilk növbədə, öz maraqları var. Bu, hazırda Ermənistanda qüvvədə olan konstitusiyanın 18 və 19-cu maddələri ilə bağlıdır. "Ermənistan konstitusiyasının 19-cu maddəsi Erməni Apostol Kilsəsinə xüsusi imtiyazlar verib və bu imtiyazlar konstitusiyaya istinadla qəbul edilən qanunvericilik aktları ilə möhkəmləndirilib. 18-ci maddənin birinci bəndində qeyd olunur ki, "Ermənistan Respublikası Erməni Apostol Müqəddəs Kilsəsinin milli kilsə kimi erməni xalqının mənəvi həyatındakı, onun milli mədəniyyətinin inkişafı işindəki və milli özünəməxsusluğunun qorunmasındakı müstəsna missiyasını qəbul edir". Eyni maddənin ikinci bəndində isə deyilir ki, "Ermənistan Respublikası ilə Erməni Apostol Müqəddəs Kilsəsinin münasibətləri qanunla tənzimlənə bilər". Ermənistan konstitusiyasının iqtibas gətirdiyim maddəsinə istinadən, 2007-ci ildə Ermənistan Respublikası ilə Erməni Apostol kilsəsinin münasibətləri haqqında qanun qəbul edilib və bu qanunda kilsəyə Ermənistandakı ictimai-siyasi, mədəni və ideoloji proseslərə birbaşa müdaxilə etmək imkanları verilib. Ermənistan konstitusiyasının 19-cu maddəsi isə erməni diasporu ilə bağlıdır. Bu maddə də əsasən daşnak qrupları tərəfindən idarə olunan erməni diaspor təşkilatlarına Ermənistanın daxili və xarici siyasətinə müdaxilə etmək imkanları verir. Daşnaksütyunun idarəçiliyində olan ənənəvi erməni diaspor təşkilatlarının və erməni Apostol Kilsəsinin Nikol Paşinyana olan aqressiv münasibətini nəzərə alsaq, baş nazirin konstitusiyadan sözügedən maddələri çıxarmaq istiqamətindəki əndişəsinin səbəblərini müəyyənləşdirmək mümkündür. Paşinyan kilsənin və diasporun, ilk növbədə, onun hakimiyyətinə təhdid yaradan konstitusion səlahiyyətlərinə son qoymaq istəyir", - deyə siyasətçi əlavə edib.

E.Mirzəbəyli qeyd edib ki, Nikol Paşinyan konstitusiya ilə bağlı açıqlamalarında Azərbaycanın tələbləri ilə bağlı bir qayda olaraq heç nə demir. Amma onun yeni konstitusiyanın qəbulunun strateji məqsədləri haqda söylədikləri, həm də Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı istiqamətlərə işarə etdiyini düşünməyə əsas verir. Paşinyan deyir ki, yeni konstitusiyanın qəbulunun strateji məqsədi, dövlətsiz bir millətin qalıq fəaliyyətindən dövlətçilik təfəkkürü olan bir xalqın fəaliyyətinə keçiddir. Bu yanaşma Paşinyanın daha öncə səsləndirdiyi "real Ermənistan" haqqında mülahizələrin hüquqi-siyasi müstəvidə ifadə edilmiş nümunəsidir. Ermənistanın "dövlətsiz millət" ifadəsi, əslində, "diaspor xalqı" deyiminin ekvivalenti hesab oluna bilər. Bu, o deməkdir ki, ermənilər "diaspor xalqı" olmaqdan və ərazilərində hazırda, yaxud nə zamansa yaşadıqları dövlətlərə qarşı ərazi iddiaları irəli sürməkdən əl çəkməli, onlara tarixi Azərbaycan torpaqlarında yaradılan təsisatın real sərhədləri çərçivəsində dövlət qurmaq haqqında düşünməlidirlər.

Deputat vurğulayıb ki, bütün bunlarla yanaşı, Nikol Paşinyanın zahiri görkəmi kimi fikirlərini də tez-tez dəyişdiyini nəzərə alsaq, onun son nəticədə hansı qüvvənin təhriki ilə hərəkət edəcəyini, yaxud hansı situativ qərar verəcəyini ehtimal etmək çətindir. Onun fikirləri arasındakı fərq saqqallı Paşinyanla saqqalsız Paşinyan arasındakı fərq qədərdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Avropa İttifaqı Ermənistanı revanşizmə qızışdırır

### "Xristian klubu"nun hərbiləşmiş missiyası həssas olan sülhə ziyan vurur

**"Biz Avropa İttifaqı (Aİ) ilə enerji sektoru da daxil olmaqla, qarşılıqlı faydalı əməkdaşlığın inkişafında perspektivlər görürük. Azərbaycan müxtəlif infrastruktur layihələri, o cümlədən "Cənub qaz dəhlizi" vasitəsilə Aİ-nin bəzi üzv dövlətlərinə qaz təchizatının coğrafiyasını genişləndirir. Hazırda 8-i Aİ üzvü olmaqla, 10 Avropa ölkəsi Azərbaycandan qazı alır və bu, bəzi ölkələrdə daxili istehlakın, demək olar ki, yarısını ödəyir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. Deputat xatırladıb ki, 10 yanvar 2025-ci ildə Prezident İlham Əliyevlə Avropa Şurası Prezidenti Antonio Koşta arasında telefon danışığı da olub. Avropa Şurasının keçmiş prezidenti Şarl Mişel də Azərbaycana münasibətdə müsbət siyasət kursu həyata keçirirdi. Mişel Aİ-nin Cənubi Qafqaza baxışında yeni strateji çəki gətirmişdi. "Lakin son dövrlərdə digər Aİ rəsmilərinin hərəkətləri Azərbaycan ilə Aİ arasında münasibətlərə mənfi təsir göstərib. Azərbaycana qarşı ədalətsiz tələblər irəli sürülməsi narahatlıq yaradır. Aİ iqlim fəaliyyəti üzrə güclü dəstəkləyici kimi tanınır və əvvəlki COP-larda hər zaman ən yüksək səviyyədə təmsil olunmasına baxmayaraq, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin COP29 Liderlər Sammitində planlaşdırılan iştirakını son anda ləğv etmək qərarı siyasi səbəblərlə bağlı idi. Aİ rəsmisi Cozep Borel Azərbaycana qarşı qərəzli mövqe sərgiləyib və əsassız bəyanatlar səsləndirib. Aİ sözçüsünün bəyanatlarında Azərbaycanın daxili işlərinə qarışan, qəbuledilməz ifadələr yer alıb", - deyə siyasətçi əlavə edib.

P.Vəliyeva qeyd edib ki, Avropa Parlamenti sanki Avropa Komissiyasının açıq şəkildə ifadə etmək istəmədiyi fikirləri səsləndirir. 2023-cü ilin sentyabrında antiterror əməliyyatından sonra AP Azərbaycan əleyhinə üç qərəzli qətnamə qəbul edib. Bu qətnamələrdə Azərbaycana qarşı ittihamedici, absurd, ayrı-seçkilik sərgiləyən fikirlər yer alıb. 2024-cü il aprelin 5-də Brüsseldə keçirilmiş və Ursula fon der Lyayen, Cozep Borel, Antoni Blinken və Nikol Paşinyanın iştirak etdiyi "Ermənistanın davamlılığına dəstək" mövzusunda Aİ-ABŞ-Ermənistan yüksəksəviyyəli görüşü də şəffaf olmayıb, regional inklüzivlik təmin edilməyib və regionda etimad quruculuğuna ciddi şəkildə zidd olub. Bu üçtərəfli formatla Aİ regionda yeni bölücü xətlər yaratmağa çalışır.

Deputat bildirib ki, Ermənistanda Aİ Monitorinq missiyasının (EUMA) fəaliyyəti ciddi narahatlıq doğurur, çünki bu, ilkin razılaşmalara ziddir: "Aİ Şurasının EUMA-nın mandatını bu ilin əvvəlində daha iki il uzadaraq sərhədimizdə "binokl diplomatiyası"nı davam etdirməsi açıq-aşkar düşmənçilik xarakteri daşıyır. Avropa İttifaqı ilə tərəfdaş ölkəyə belə münasibət bəsləməzlər. Digər ölkənin sərhədində dayanıb sanki düşmən tərəfə baxırmış kimi hərəkətlər etmək doğru deyil. Heç bir ölkə istəməz ki, onun sərhədində 3-cü bir dövlətin sərhəd-mühafizə dəstələri və ya hərbi-kəşfiyyat missiyası olsun. Həm də Azərbaycan və Ermənistan arasında de-fakto sülh mövcuddur. Hər iki ölkə sərhədin delimitasiyası prosesi ilə məşğuldur. Missiyanın sərhəddə mövcudluğu Azərbaycan və Ermənistan arasında hazırda həssas olan sülh sazişi üzrə danışıqlara ziyan vurur".

P.Vəliyeva deyib ki, Avropa Sülh Mexanizmi (EPF) Ermənistan silahlı qüvvələrinə 10 milyon avro dəyərində dəstək göstərib. Fransa və Hindistandan da bu yardımlar davam etdirilir. Aİ-nin ikili standartları onun etibarlılığını sarsıdır. Elə Münxen Təhlükəsizlik Konfransında ABŞ-nin vitse-prezidenti Ci Di Vensin çıxışı da bunu deməyə əsas verir ki, Avropada demokratiya və dəyərlər çoxdan ölüb. İkili standartlar, ayrı-seçkilik, qərəzli yanaşmalar bu qurumun beynəlxalq nüfuzuna ciddi zərbə vurub. Ci Di Vens hər kəsin, dünya ictimaiyyətinin çoxdandır bildiyi həqiqətləri dünyada ən güclü dövlətin mövqeyi kimi dilə gətirib və bu, təbii ki, Avropa liderlərini narahat edir. "Təxminən 30 il davam edən Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan suveren ərazilərini işğalı dövründə Aİ bunu heç vaxt qınamamışdı. Lakin indi Aİ təcavüzkar dövlətin tərəfində dayanaraq "durbin diplomatiyası" aparır, onun hərbiləşməsinə kömək edir və bununla da Ermənistanı revanşizmə qızışdırır. Üstəlik, Aİ rəsmiləri Ermənistandan qovulan azərbaycanlıların geri qayıtmasına heç vaxt dəstək ifadə etməyib, Azərbaycan mədəni irsinin qəsdən məhv edilməsini qınamayıb, nə də ki, bunu dilə gətirən kimsə olmayıb. Əgər söhbət həqiqətən demokratiyadan və insan hüquqlarından gedirsə, Aİ bu məsələləri də işıqlandırardı, lakin söhbət Azərbaycan olunca, susmağa, özünü görməzliyə və eşitməzliyə vurmağa davam edir", - deyə o əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Kənar qüvvələrin ətəyindən yapışmaq vərdişi

### Ermənistan getdikcə gərginləşən qarşıdurma meydanına çevrilir

**Azərbaycanın Vətən müharibəsində torpaqlarını işğaldan azad etməsi, Qarabağda erməni separatizminə son qoyması regionda tamamilə yeni reallıqlar yaradıb. Bu reallıqlar fonunda cərəyan edən proseslərin, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı müzakirələrin ortaya qoyduğu həqiqətlərdən biri də budur ki, regiondakı problemləri kənar dövlətlərin iştirakı olmadan həll etmək mümkündür.**



#### Problemləri region ölkələrinin özləri həll etməlidir

Azərbaycanın hər zaman çalışdığı məqsədlərdən biri də məhz bundan ibarətdir ki, regiondakı problemləri region dövlətlərinin özləri həll etsinlər. Fevralın 20-də İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibafın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev bu məsələyə də toxunub. Dövlətimizin başçısı regional məsələlərin region ölkələri tərəfindən həll edilməli olduğunu, bölgədənkənar qüvvələrin regiona müdaxiləsinin qəbuledilməzliyini deyib. Prezident İlham Əliyev həmçinin 3+3 formatının əhəmiyyətini vurğulayıb. Öz növbəsində ölkəsinin Azərbaycanla birlikdə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında ortaq maraqları bölüşdüyünü deyən Məhəmməd Baqir Qalibaf İranın regionun məsələlərinin region ölkələri tərəfindən həll edilməsi yanaşmasını dəstəklədiyini bildirib.

Tarixi təcrübə də göstərir ki, kənar dövlətlər Cənubi Qafqazdakı problemlərin həm ədalətli həllində maraqlı olmayıblar, həm də bu problemlərin fonunda öz məqsədlərini güdüblər. Bunu həm artıq həllini tapmış Qarabağ problemi, həm də Gürcüstanın üzləşdiyi ərazi problemləri ilə bağlı demək mümkündür. Artıq fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupu 1992-ci ildən 2020-ci ilə qədər Qarabağ münaqişəsinin ədalətli həlli üçün irəliyə doğru bir addım belə atmadı. Həmsədrlər problemin həlli üçün heç vaxt vicdanlı fəaliyyət göstərmədilər, ara-sıra deklorativ bəyanatlar verməklə kifayətləndilər. Baxmayaraq ki, Ermənistanın işğal siyasəti həyata keçirməsi gün kimi aydın idi və beynəlxalq hüquq da Azərbaycanın ədalətli mövqeyini ifadə edirdi. Və indi, Azərbaycanın ərazilərini öz gücü ilə azad etməsindən sonra ortaya çıxan həqiqət budur ki, amorf qurum kimi ATƏT-in Minsk qrupu, əslində, Ermənistanın işğal siyasətinə dəstək verib, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına çalışıb. Lakin onların bu planları iflasa uğradı. Vətən müharibəsindəki zəfərimiz həm də Minsk qrupunun həmsədri Fransanın ifşası oldu.

#### Ermənistan bölgəyə kənar qüvvələrin gətirilməsində maraqlıdır

Torpaqlarımızın işğaldan azad edilməsi Minsk qrupunun siyasi səhnədən getməsi, fəaliyyətinin iflasa uğraması ilə nəticələndi. Eyni zamanda sonrakı proseslər təsdiq etdi ki, Azərbaycanla Ermənistan problemləri heç bir vasitəçi olmadan özləri də həll edə bilərlər. Bunun ilk əsas nümunələrindən biri Azərbaycanın Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsidir.

Bu prosesin davamı kimi Azərbaycanla Ermənistan arasında ötən ildən başlayan dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesində də heç bir vasitəçi və ya üçüncü tərəf iştirak etmir. Beləliklə, bütün bunlar iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesində hər hansı üçüncü tərəfin vasitəçilik təşəbbüslərinə daha ehtiyac qalmadığını göstərir. Bu isə Azərbaycanın ilk gündən nümayiş etdirdiyi prinsipial niyyətlə üst-üstə düşür.

Bununla belə, Ermənistanın digər istiqamətlərdə ortaya qoyduğu fəaliyyət, proseslərə baxış bucağı yuxarıda qeyd olunanlarla tamamilə təzad təşkil edir. Söhbət ondan gedir ki, artıq hansısa vasitəçinin iştirakı olmadan problemlərin həlli mümkün olsa da, Ermənistan regiona kənar qüvvələrin gətirilməsində maraqlıdır. Bunu Ermənistanda Avropa İttifaqının müşahidəçi missiyasının yerləşdirilməsi də təsdiq edir. Missiyanın Ermənistana gəldiyi iki ildən artıq dövrün mənzərəsi isə göstərir ki, bu fəaliyyət heç bir halda regionda sülhə və təhlükəsizliyə xidmət etmir.

Aİ missiyası 2022-ci ilin payızından ilk olaraq 40 nəfərlə Ermənistana gəlib. Daha sonra sayı artırılaraq 200 nəfəri ötüb. Adı mülki olsa da, bu, hərbiləşdirilmiş kəşfiyyat missiyasıdır. Çünki bu "mülki missiya"nın tərkibi keçmiş hərbçilərdən, kəşfiyyat orqanlarının strukturlarında xidmət edən heyətdən ibarətdir. Onlar "binokl diplomatiyası" yolu ilə Azərbaycanın mövqeləri, bölmələrin dislokasiya rayonları haqqında kəşfiyyat məlumatları toplayır, ardınca bu məlumatları Ermənistanın baş qərargahına ötürürlər. Bu yaxınlarda isə missiyanın mandatının daha iki il müddətinə - 2027-ci il fevralına qədər uzatmaq barədə razılıq əldə edilib. Aİ missiyasının müddətini uzatmaqla bərabər həm də onun hərbiləşdirilməsini gücləndirir. Hərbiləşdirilmiş bölmələrin Ermənistan-Türkiyə və Ermənistan-İran sərhədləri boyunca fəaliyyət göstərmələri nəzərdə tutulur.

Göründüyü kimi, Aİ-nin öz missiyasını Ermənistanda yerləşdirməkdə məqsədi sülhün və təhlükəsizliyin təmin olunması deyil. Aİ-nin niyyəti sadəcə Ermənistandan plasdarm kimi istifadə etməklə, bölgədə özünün hərbi amil olaraq mövcudluğuna şərait yaratmaqdır. Bu baxımdan Ermənistanın kənar qüvvələri öz ərazisinə gətirməsi heç bir halda xoş məramə və ya xoş niyyətə xidmət etmir. Eyni zamanda İrəvanın bu addımları regionun heç bir dövləti, Ermənistanın heç bir qonşusu tərəfindən müsbət qarşılanmır.

Kənar qüvvələrin ətəyindən yapışmaq Ermənistanın çoxdankı və tərgidə bilmədiyi vərdişidir. Bir vaxtlar bu ölkə Minsk qrupunun arxasında gizlənirdi. İndi Fransanın yedəyində gedir və Aİ-nin məkrli planlarının həyata keçirilməsinə şərait yaradır. Lakin bütün bunlar perspektivdə Ermənistana yaxşı heç nə vəd etmir. Görünən odur ki, bu ölkə getdikcə müxtəlif siyasi qütblər arasında daha güclü qarşıdurma meydanına çevrilir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Viktor ORBAN:* "Yüksək enerji qiymətləri Avropa iqtisadiyyatını məhv edəcək"

**"Ukrayna münaqişəsinin həllinin mümkünlüyünə baxmayaraq, Macarıstan hökuməti yüksək enerji qiymətlərinin davam edəcəyindən və bunun Avropa iqtisadiyyatını çökdürəcəyindən qorxur".**



AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orban bu barədə "Kossuth" radiostansiyasında çıxışı zamanı deyib.

2024-cü ildə Avropa İttifaqına üzv ölkələrin rəqabət qabiliyyətlərinin artırılması ilə bağlı Budapeşt Bəyannaməsinin qəbul edildiyin xatırladan baş nazir onun əsasən neft və qaz qiymətlərinin aşağı salınması ilə bağlı tədbirləri nəzərdə tutduğunu vurğulayıb.

"Qorxuram ki, vədlərimiz yerinə yetirilməyəcək və enerji qiymətləri ucuzlaşmayacaq. Avropada yanacağın qiyməti artır və bu, iqtisadiyyatı məhv edəcək", - deyə Viktor Orban bildirib.

Macarıstanın hökumət başçısı Ukraynadakı münaqişənin həllində ilk addımların sülhün əldə olunmasına ümid verdiyini və bunun qlobal iqtisadi vəziyyəti yaxşılaşdırmağa kömək edəcəyini vurğulayıb.

O, eyni zamanda Avropa İttifaqının hazırkı liderlərinin bütün üzv ölkələrin maraqlarına uyğun effektiv siyasət həyata keçirə biləcəklərinə inanmadığını açıqlayıb. "Ola bilsin ki, sülh bütün Avropa iqtisadiyyatına müsbət təsir etsin, lakin mən Brüssel, Berlin və ya Parisdən Macarıstan iqtisadiyyatına müsbət təsir göstərə biləcək hər hansı idarəetmə qərarını gözləmirəm", - deyə Orban əlavə edib.

## *Politoloq:* "ABŞ səfirliyinin Vaşinqton-Tbilisi münasibətlərinə xələl gətirən kampaniyaya susması anlaşılmazdır"

**"Gürcüstan hökuməti və gürcü xalqı ABŞ-nin demokratik yolla seçilmiş Prezidenti Donald Trampa və onun administrasiyasına qarşı aparılan antidemokratik və anti-Amerika kampaniyasından narahatdır".**

AZƏRTAC xəbər verir ki, bu sözlər gürcü politoloq Soso Mncavidzenin ABŞ-nin Gürcüstandakı səfiri Robin Dunniqana müraciətində əksini tapıb.

Mancavidze qeyd edib: "ABŞ səfirliyinin Vaşinqton-Tbilisi münasibətlərinə xələl gətirən kampaniyaya susması tamamilə anlaşılmazdır. Gürcüstan cəmiyyəti bu məsələdə sizin mövqeyinizi səbirsizliklə gözləyir".

# Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mülki aviasiyada idarəetmə, tənzimləmə, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, bu sahədə həyata keçirilən fəaliyyətin optimallaşdırılması və dövlət nəzarətinin səmərəliliyinin artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin əsasında Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs yaradılsın.

2. "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Nazirliyin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs (bundan sonra - Agentlik) Azərbaycan Respublikasının ərazisində mülki aviasiya sahəsində dövlət siyasətinin formalaşdırılmasında, həyata keçirilməsində və inkişafında iştirak edən, uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üçün tənzimləmənin və nəzarətin (keyfiyyətə nəzarət də daxil olmaqla), habelə mülki aviasiyada dövlət nəzarəti çərçivəsində təhlükəsizliyin təmini ilə bağlı xidmətlər göstərilməsi sahələrində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Agentlik bu Fərmanın 1-ci hissəsində qeyd edilən qurumların hüquqi varisidir, onların hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçir;

3.3. Agentliyin fəaliyyətinin təşkil və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti, həmçinin Agentliyin öz fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait, beynəlxalq təcrübəyə əsasən aviadaşıyıcılar tərəfindən hava limanlarına və aeronaviqasiya xidmətlərinə görə ödənilən məbləğdən nəzarət funksiyaları ilə bağlı yığımlar və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilir;

3.4. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün dörd üzvdən - sədr və onun üç müavinindən ibarət İdarə Heyəti yaradılır.

4. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

4.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;

4.1.3. Agentliyin İdarə Heyəti sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Agentliyin yenidən təşkili və ləğvi;

4.2. Nazirliyə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. hava limanlarının (aeroportların) idarə edilməsi ilə bağlı təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Agentlik işçilərinin xidməti geyim formaları nümunələrini, fərqləndirmə nişanlarının təsvirini və onların daşınması qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan qurumların balansındakı dövlət əmlakının Agentliyin balansına verilməsi və Agentliyin inzibati bina ilə təmin olunması məsələlərinin həlli üçün tədbirlər görsün;

5.4. Agentliyin 2025-ci ildə saxlanılması xərclərinin bu Fərmanın 1-ci hissəsində qeyd edilən qurumlar üçün cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi, növbəti illərdə isə dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində ayrıca sətirlə nəzərdə tutulması ilə bağlı tədbirlər görsün;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Nazirlik:

6.1. Agentliyin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2025-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Agentlik) Azərbaycan Respublikasının ərazisində mülki aviasiya sahəsində dövlət siyasətinin formalaşdırılmasında, həyata keçirilməsində və inkişafında iştirak edən, uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üçün tənzimləmənin və nəzarətin (keyfiyyətə nəzarət də daxil olmaqla), habelə mülki aviasiyada dövlət nəzarəti çərçivəsində təhlükəsizliyin təmini ilə bağlı xidmətlər göstərilməsi sahələrində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (bundan sonra - BMAT) beynəlxalq standartlarını və tövsiyə olunan təcrübəsini (bundan sonra - beynəlxalq standartlar və tövsiyə olunan təcrübə), digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, rəsmi emblemi, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Agentlik işçilərinin xidməti geyim forması və fərqləndirmə nişanları vardır.

1.8. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.8.1. tam halda - "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs, qısaldılmış halda - DMAA;

1.8.2. ingilis dilində tam halda - "The State Civil Aviation Agency" publiclegalentity, qısaldılmış halda - SCAA.

1.9. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1.müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə tənzimləməni və nəzarəti həyata keçirmək;

2.1.4. müvafiq sahədə mülki hava limanlarının, aerodromların, helikopter meydançalarının və digər mülki aviasiya obyektlərinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.5. müvafiq sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasına nəzarətin həyata keçirilməsi məqsədilə zəruri tədbirlər görmək;

2.1.6. Azərbaycan Respublikasının hava məkanında uçuşların təhlükəsizliyinin və aviasiya təhlükəsizliyinin idarə edilməsi sistemini təşkil etmək və onun fəaliyyətini təmin etmək üçün tədbirlər görmək;

2.1.7. aviasiya hadisələri və insidentləri baş vermədən, insanların həyat və sağlamlığına, əmlakına zərər vurulmadan, bütövlükdə hər hansı narahatlığa yol verilmədən uçuşların təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etmək;

2.1.8. Azərbaycan Respublikasının hüdudlarında müvafiq sahədə uçuşların təhlükəsizliyinə, aviasiya təhlükəsizliyinə, aviasiya texnikasının səmərəli istifadəsinə və istismarına nəzarəti həyata keçirmək;

2.1.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

2.1.10. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Agentliyin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının, məqsədli proqram vəsahə standartları layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. Agentliyin fəaliyyətini Nazirliklə və müvafiq sahədə fəaliyyət göstərən digər qurumlarla əlaqələndirmək;

3.1.3. müvafiq sahəyə aid beynəlxalq müqavilələrlə bağlı danışıqlarda iştirak etmək;

3.1.4. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.5. qanunda nəzərdə tutulan hallarda və beynəlxalq tələblərə uyğun olaraq, mülki hava gəmisinin istismarçılarına və mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərə hüquq müəyyənedici sənədlər vermək, xarici dövlətlərdə verilən analoji sənədlərin tanınması, onların verilməsindən imtina edilməsi, qüvvədəolma müddətlərinin məhdudlaşdırılması, dayandırılması və ləğvi barədə qərarlar qəbul etmək;

3.1.6. beynəlxalq standartların və tövsiyə olunan təcrübənin milli qanunvericilikdə implementasiyasına münasibət bildirmək, qeyd edilən beynəlxalq standartların və tövsiyə olunan təcrübənin milli qanunvericilikdə implementasiyası ilə bağlı Nazirliyə təkliflər vermək, mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərə beynəlxalq standartları və tövsiyə olunan təcrübəni əks etdirən icrası məcburi olan göstərişlər vermək;

3.1.7. müvafiq sahədə münasibətləri tənzimləyən beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğun olaraq, tələblərə riayət edilməsinə nəzarətin həyata keçirilməsini və keyfiyyətə nəzarət sisteminin tətbiqini təmin etmək;

3.1.8. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, onlardan irəli gələn beynəlxalq standartlar və tövsiyə olunan təcrübə ilə müvafiq sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktları və tətbiq olunan təcrübəsi arasında fərqlərin mövcudluğu barədə aidiyyəti üzrə Nazirliyə və BMAT-a məlumat vermək;

3.1.9. uçuşların təhlükəsizliyinin, həmçinin aviasiya təhlükəsizliyinin təmin olunması və idarə edilməsi sahəsini tənzimləyən daxili qanunvericiliyin, beynəlxalq standartların və tövsiyə olunan təcrübənin tətbiqi məqsədilə təlimatlar hazırlamaq, təsdiq etmək və rəsmi internet informasiya ehtiyatında yerləşdirmək;

3.1.10. beynəlxalq standartları və tövsiyə olunan təcrübəni nəzərə alaraq, Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.11. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.12. uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində nəzarəti həyata keçirmək;

3.1.13. uçuşların və aviasiya təhlükəsizliyinin, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahələrində qlobal, regional və milli səviyyədə mütəmadi yenilənən müvafiq aviasiya planlarını hazırlamaq, həmin planların icrasına nəzarət etmək;

3.1.14. BMAT-ın və digər sahəvi beynəlxalq təşkilatların tələb etdikləri müvafiq sahə üzrə bəyanatları qəbul etmək;

3.1.15. uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi ilə bağlı beynəlxalq standartların və tövsiyə olunan təcrübənin xidmət təminatçıları tərəfindən səmərəli yerinə yetirilməsinə nəzarət etmək;

3.1.16. mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunluğuna nəzarət etmək;

3.1.17. təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün xidmət təminatçılarından uçuşlarının təhlükəsizliyi ilə bağlı məlumatları toplamaq, həmin məlumatların vahid bazasını formalaşdırmaq və risklərin qiymətləndirilməsi məqsədilə təhlillər aparmaq, habelə mülki hava gəmiləri uçuşlarının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar müvafiq sahədə fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirmək, nəzarət tədbirlərinin nəticələri barəsində Nazirliyə məlumat vermək və aşkarlanmış pozuntuların aradan qaldırılmasını mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərdən tələb etmək;

3.1.18. uçuşların təhlükəsizliyinin məqbul hesab olunan həddini əldə etmək, təhlükə mənbələrini aşkarlamaq və risklərə nəzarət etmək, aviasiya hadisələrinin və insidentlərinin qarşısının alınması üçün uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət çərçivəsində, habelə Azərbaycan Respublikasının hava məkanında aeronaviqasiya, meteoroloji təminat və telekommunikasiya xidmətlərinin və xidmət vasitələrinin keyfiyyəti ilə bağlı mütəmadi müfəttiş yoxlamaları və monitorinqlər aparmaq, Azərbaycan Respublikasının hava limanlarına uçuşlar yerinə yetirən digər dövlətlərə mənsub hava gəmilərinin perron yoxlamalarını həyata keçirmək və aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görmək, milli və beynəlxalq tələblərə uyğun olaraq digər yoxlamalar keçirmək, icazə və tanınma üzrə prosedurların tətbiq olunduğu fəaliyyəti yoxlamaq, icra olunmuş yoxlamaların və monitorinqlərin nəticələri barəsində Nazirliyə məlumat vermək;

3.1.19. aviasiya təhlükəsizliyi sahəsində dinamik dəyişən risklərə adekvat cavab tədbirlərinin hazırlanmasında iştirak etmək;

3.1.20. fəaliyyət istiqamətlərinə uyğun olaraq aviasiya təhlükəsizliyi sahəsində innovativ texnologiyaların və müasir avadanlıqların tətbiqinin hüquqi və təşkilati əsaslarını işləyib hazırlamaq, bu tədbirlərin aviasiya təhlükəsizliyi xidmətləri, hava limanları və hava gəmilərinin istismarçıları tərəfindən həyata keçirilməsinə nəzarət etmək;

3.1.21. mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə aktları ilə bağlı yaranmış böhran vəziyyətinin nizamlanması üçün əməliyyatlarda iştirak etmək, həmçinin qanunsuz müdaxilə aktları barədə xidməti araşdırma aparmaq, araşdırmalar üzrə hesabatlar hazırlamaq və qanunsuz müdaxilə aktlarının qarşısının alınması üçün profilaktik tədbirlər həyata keçirmək;

3.1.22. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək, görülən işləri mütəmadi təhlil etmək, problemlərin həlli yollarını araşdırmaq və bununla bağlı Nazirliyə müvafiq təkliflər vermək;

3.1.23. Agentlik tərəfindən hüquqi və fiziki şəxslərə verilən sənədlər itirildikdə, zədələndikdə və ya yararsız hala düşdükdə onların dublikatını vermək;

3.1.24. səlahiyyətləri çərçivəsində, mülki aviasiya sahəsinə münasibətdə milli və beynəlxalq tələblərə uyğun olaraq, mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxsləri, aviasiya avadanlığı və vasitələrini sertifikatlaşdırmaq, həmçinin verilmiş sertifikatların şərtlərinə onlar tərəfindən riayət olunmasına nəzarət etmək;

3.1.25. mülki hava gəmisinin istismarçılarına və mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərə verilmiş hüquq müəyyənedici sənədlərin tələblərə uyğunluğuna nəzarət etmək;

3.1.26. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, şəhadətnamə, vəsiqə və ya sertifikatlar vermək, həmçinin xarici dövlətlərin səlahiyyətli orqanlarının verdikləri analoji sənədlərin müəyyən olunmuş qaydada tanınmasını həyata keçirmək;

3.1.27. müvafiq sahədə yüklərin və poçtun, bort ehtiyatlarının, hava limanı tədarüklərinin aviasiya təhlükəsizliyini təmin etmək məqsədilə qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə (tədarükçülərə) sertifikatlar və fərdi kod nömrəsi vermək, onların reyestrini aparmaq və verilmiş sertifikatların şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.28. mülki pilotsuz uçuş aparatlarını məsafədən idarə edən pilotlara (operatorlara) şəhadətnamələr vermək;

3.1.29. mülki hava gəmilərinin dövlət qeydiyyatını və reyestrini, aviasiya personalının şəhadətnamə, vəsiqə və sertifikatlarının, sertifikatlaşdırılmış mülki hava limanlarının, aerodromların və helikopter meydançalarının və mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin reyestrlərini aparmaq;

3.1.30. xidmət təminatçıları tərəfindən Azərbaycan Respublikasının hava məkanında uçuş qaydalarının tələblərinə riayət olunmasının təmin edilməsinə nəzarəti həyata keçirmək;

3.1.31. mülki hava gəmisi istismarçılarının xüsusi şəraitlərdə uçuş əməliyyatlarının yerinə yetirilməsinə hazırlığını yoxlamaq və onlara müvafiq icazələr vermək;

3.1.32. təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq mülki aviasiya sahəsində fəaliyyət göstərən bütün subyektlər üçün mülki hava gəmilərinin və hava limanlarının rejim zonalarının ərazisində digər nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinə və istismarına dair texniki tələb, qayda və təlimatların layihələrini Nazirliyə təqdim etmək, onların icrasına nəzarəti həyata keçirmək;

3.1.33. Azərbaycan Respublikasının ərazisinə və Azərbaycan Respublikasının ərazisindən təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasını həyata keçirmək istəyən istismarçılara icazələr vermək, habelə xarici dövlətdə müvafiq icazə almış xarici dövlətlərin istismarçılarının tanınmasını həyata keçirmək;

3.1.34. təhlükəli yüklərin mülki hava gəmiləri ilə təhlükəsiz daşınmasına nəzarət etmək;

3.1.35. təhlükəli yüklərin göndərilməsi və mülki hava limanlarında emalı (qəbulu, saxlanılması, qorunması və hava gəmisinə yüklənməsi) ilə məşğul olan fiziki və hüquqi şəxslərin, təyin olunmuş poçt operatorları tərəfindən təhlükəli yüklərin poçtla göndərilməsi zamanı Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, beynəlxalq standartların və tövsiyə olunan təcrübənin şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.1.36. xarici dövlətlərin rəsmi nümayəndə heyətini və (və ya) diplomatik poçtu daşıyan xarici hava gəmilərinə Azərbaycan Respublikasının mülki hava limanlarına enməsi və Azərbaycan Respublikasının hava məkanı üzərindən keçməsi ilə bağlı icazələr vermək;

3.1.37. mülki eksperimental və mülki hava gəmiləri ilə hərbi avadanlığın (ləvazimatın), hərbi avadanlıq (ləvazimat) hesab edilməyən təhlükə potensiallı, o cümlədən xüsusilə təhlükəli yüklərin (malların) daşınması üçün icazə vermək;

3.1.38. xarici ölkələrin dövlət aviasiyasına məxsus hava gəmilərinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarına enməsi ilə bağlı rəy vermək;

3.1.39. Azərbaycan Respublikasının hüdudlarında müvafiq sahədə uçuşların təhlükəsizliyinə, aviasiya texnikasının səmərəli istifadəsinə və istismarına nəzarəti təmin etmək;

3.1.40. mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsinə, mülki hava gəmilərinə texniki xidmət göstərilməsinə nəzarəti həyata keçirmək;

3.1.41. aviasiya texnikasının təmirini və texniki xidməti həyata keçirən təşkilatlar və istismarçılar tərəfindən uçuşa yararlılıq normalarına riayət olunmasına nəzarət etmək;

3.1.42. Azərbaycan Respublikasının hava məkanında və mülki hava limanlarında hava gəmilərinin uçuşlarına aeronaviqasiya, telekommunikasiya, informasiya xidmətləri və meteoroloji xidmət göstərilməsini təşkil etmək və həmin xidmətləri göstərənlər üçün tələblərin müəyyənləşdirilməsində iştirak etmək;

3.1.43. mülki hava limanlarının, aerodromların, helikopter meydançalarının beynəlxalq uçuşlar üçün açılması (bağlanması) barədə Nazirliyə təkliflər vermək;

3.1.44. aerodromyanı ərazinin hüdudlarında yaşayış məntəqələrinin layihələndirilməsinə, inşasına, habelə sənaye, kənd təsərrüfatı və digər obyektlərin inşasına və yenidən qurulmasına uçuşların təhlükəsizliyinə dair tələblərə riayət edilməklə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq razılıq vermək;

3.1.45. uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada razılıq vermək;

3.1.46. mülki aviasiyaya hava hərəkəti xidmətlərini təmin edən xidmət təminatçılarına hava hərəkətinə xidmətin, o cümlədən meteoroloji xidmətin həyata keçirilməsinə razılıq vermək;

3.1.47. hava limanlarının (aerodromların), yerüstü naviqasiya vasitələrinin texniki vəziyyəti və istismarı ilə bağlı məlumatları toplamaq və təhlil etmək;

3.1.48. aerodromların ərazisində hava gəmilərinə texniki və yerüstü xidmətlər göstərən xüsusi avtonəqliyyatın istismarı, uçuşların radio-işıq texniki təminatı, aerodromların sertifikatlaşdırma tələblərinə uyğun istismarı ilə bağlı müfəttiş yoxlamaları aparmaq;

3.1.49. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hava limanlarının, aerodrom və helikopter meydançalarının inşası və yenidən qurulması ilə əlaqədar müvafiq ərazilərin ayrılması, tədqiqat, layihələndirmə və tikinti fəaliyyəti üçün rəy vermək və bu işlərin aidiyyəti qurumlarla əlaqələndirilməsi məqsədilə işçi qruplar yaradılması ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.50. mülki aviasiyanın fəaliyyəti ilə bağlı ətraf mühitin mühafizəsi sahəsində ümumi koordinasiya işi aparmaq;

3.1.51. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya Katibliyinin funksiyalarını həyata keçirmək;

3.1.52. mülki hava limanlarında hava gəmiləri üçün müəyyən edilmiş uçuş vaxt slotlarının paylanılması işində iştirak etmək, bu sahədə nəzarəti həyata keçirmək, aşkar edilmiş nöqsanlarla bağlı tədbirlər görmək;

3.1.53. aviasiya hadisəsi zamanı axtarış və xilasetmə işlərinin təşkilində iştirak etmək;

3.1.54. Azərbaycan Respublikasının ərazisində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən digər ərazilərdə qəzaya uğramış mülki hava gəmisi heyətinin və sərnişinlərinin axtarışı və xilas edilməsi üçün xidməti araşdırma aparmaq, eləcə də xarici dövlətlərin axtarış və xilasetmə işlərinə məsul olan aviasiya qəza-xilasetmə üzrə həyata keçirilən zəruri tədbirlərdə iştirak etmək;

3.1.55. Azərbaycan Respublikasının ərazisində (mülki hava limanlarında və onlardan kənarda) mülki hava gəmilərinə münasibətdə qəza-xilasetmə və yanğınsöndürmə işlərinin təşkilinin monitorinqini aparmaq;

3.1.56. fövqəladə hallarda aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müvafiq sahədə fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlarda səfərbərlik hazırlığını həyata keçirmək, mülki müdafiə tədbirləri görmək, fövqəladə halların nəticələrinin aradan qaldırılmasında iştirak etmək;

3.1.57. mülki hava gəmilərinə münasibətdə baş vermiş aviasiya hadisələri və insidentləri ilə bağlı hadisə yerində iştirak, aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyaya yardım göstərmək, aviasiya hadisələrinin və insidentlərinin qarşısını almaq məqsədilə aviasiya ictimaiyyəti arasında informasiyanın yayılmasını həyata keçirmək, aviasiya hadisələrinin və insidentlərinin uçotunu aparmaq;

3.1.58. aviasiya hadisələrinin və insidentlərinin monitorinqinin, onların araşdırılmasına nəzarətin həyata keçirilməsi və qarşısının alınması məqsədilə uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi üzrə məlumatların avtomatlaşdırılmış qaydada toplanılması və təhlili sistemini təsdiq və tətbiq etmək;

*Ardı 11-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin nizamnaməsi

*Əvvəli 10-cu səh.*

3.1.59. aviasiya hadisələrinin və insidentlərinin araşdırılmasında və araşdırma materiallarının tərtibində iştirak etmək;

3.1.60. mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən müvafiq sahədəki insidentlərə dair xidməti araşdırmanın vəziyyəti ilə bağlı monitorinq keçirmək;

3.1.61. aviasiya hadisələrinin qarşısının alınmasına dair tövsiyələr hazırlamaq məqsədilə Azərbaycan Respublikasının mülki aviasiya hava gəmilərinin uçuşlarının təhlükəsizlik vəziyyəti ilə bağlı təhlillər aparmaq, onların nəşrini və xidmət təminatçılarına göndərilməsini təmin etmək;

3.1.62. beynəlxalq müqavilələrə əsasən Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda uçuş marşrutlarını təsdiq etmək, bu marşrutların istismarına, habelə "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, fiziki və hüquqi şəxslər tərəfindən müntəzəm və qeyri-müntəzəm (çarter) uçuşların həyata keçirilməsinə icazə vermək;

3.1.63. müvafiq sahəyə aid beynəlxalq müqavilələrin (sazişlərin) layihələrini işləyib hazırlamaq, yeni hava əlaqələrini (marşrutlarını), beynəlxalq hava daşımaları üçün uçuş tezliklərini və onların yerinə yetirilməsinin kommersiya şərtlərini müəyyən etmək;

3.1.64. qəza halları istisna olmaqla, hava gəmisində olan şəxslərin həyat və sağlamlığına təhlükə yarandığı hallarda və ya texniki nasazlıq səbəbindən Azərbaycan Respublikasının hava məkanına daxil olan beynəlxalq uçuşları yerinə yetirən hava gəmilərinin enməsi üçün,"Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq,hava limanını müəyyən etmək;

3.1.65. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qurumlarının təkliflərinə əsasən, hava məkanının konkret hissələrini mülki aviasiya üçün qadağan olunmuş və ya məhdudlaşdırılmış zona kimi müəyyən etmək;

3.1.66. Azərbaycan Respublikasının ərazisində yerli hava xətlərində aviadaşımalar və aviasiya xidmətinin bütün növləri ilə bağlı tarif və yığımların tətbiqinə dair Nazirliyə təkliflər vermək;

3.1.67. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hava nəqliyyatı vasitələri ilə xarici ölkələrə və ya xarici ölkələrdən daşınan sərnişinlərin icbari fərdi qəza sığortası üzrə icbari qaydada sığortalanmasına nəzarət etmək;

3.1.68. beynəlxalq hava daşımaları ilə məşğul olan mülki hava gəmiləri heyətlərinin və Agentlik personalının pasport-viza təminatı üçün tədbirlər görmək;

3.1.69. Agentliyin nəzarət funksiyasını həyata keçirən müfəttişlərini xüsusi geyim forması ilə, əməyin təhlükəsizliyi ilə bağlı fərdi qoruyucu vasitələrlə və səlahiyyətlərini təsdiqləyən vəsiqələrlə təmin etmək;

3.1.70. aviadaşımalar bazarının rəqabət əsasında formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin rəqabəti məhdudlaşdıran hərəkətlərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsi ilə əlaqədar Nazirliyə məlumat vermək;

3.1.71. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.72. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentlik əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.73. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.74. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.75. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.76. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.77. mülki aviasiyaya dair müvafiq texnoloji, texniki, iqtisadi, maliyyə, sosial, ekoloji və digər məlumatlardan ibarət informasiya sistemi yaratmaq;

3.1.78. hava limanları xidmətləri və aeronaviqasiya xidmətləri ilə bağlı yığımların hesablanması qaydasına (metodikasına) uyğun müəyyən edilmiş yığımların tətbiqi ilə əlaqədar hava limanı və aeronaviqasiya sahəsində fəaliyyət göstərən subyektlərə münasibətdə iqtisadi nəzarəti həyata keçirmək və Nazirliyə hesabatlar təqdim etmək;

3.1.79. mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin, o cümlədən mülki hava limanlarının fəaliyyətinin iqtisadi tənzimlənməsini həyata keçirmək, iqtisadi və maliyyə vəziyyətini təhlil etmək;

3.1.80. müvafiq sahəyə maliyyə yardımı və texniki yardım cəlb edilməsi məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlığa dair Nazirliyə təkliflər vermək;

3.1.81. müvafiq sahəyə investisiyaların cəlb edilməsi və onlardan səmərəli istifadə üçün əlverişli şərait yaradılmasına dair təkliflər hazırlamaq;

3.1.82. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və təlim kursu proqramlarının tərtibi ilə bağlı tələbləri müəyyən etmək, aidiyyəti tədris mərkəzlərinin təlim kursu proqramlarını təsdiq etmək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.83. müvafiq sahədə müqavilə əsasında ödənişli əsaslarla hazırlıq kursları və təlimlər təşkil etmək;

3.1.84. müvafiq sahədə fəaliyyət göstərən mütəxəssislərin ayrı-ayrı kateqoriyalarının sağlamlıq vəziyyətinin, həmçinin onların peşəkar hazırlıq səviyyəsinin yoxlanılması üçün tədbirlər görmək, onların nəzəri və praktiki bilik səviyyəsi üzrə testlər keçirmək;

3.1.85. uçuş heyətinə mürəkkəb uçuş (hava) şəraitlərində uçuşlara icazələr verilməsi üçün yoxlamalar həyata keçirmək;

3.1.86. uçuş heyətinin, hava hərəkətinə xidmət dispetçerlərinin və digər aviasiya personalının sağlamlığına tibbi nəzarətin monitorinqini keçirmək;

3.1.87. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.88. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.89. dövlət və hökumət başçıları, habelə yüksəkvəzifəli nümayəndə heyətləri üçün nəzərdə tutulmuş uçuşların (liter reyslərin) hazırlanmasına və yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

3.1.90. "Aviasiya haqqında"Azərbaycan Respublikasının Qanununda və aviasiya sahəsini tənzimləyən digər normativ hüquqi aktlarda müəyyən olunmuş hallarda mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən təqdim edilmiş sənədləri təsdiq etmək;

3.1.91. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.92. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğvi haqqında Nazirliyə təkliflər vermək;

3.2.2. müvafiq sahə üzrə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

3.2.3. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. müvafiq sahə üzrə təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.2.5. müvafiq sahədə yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər və sərəncamlar vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar, komitələr və komissiyalar yaratmaq, həmçinin onların yaradılması təşəbbüsü ilə çıxış etmək və işində iştirak etmək;

3.2.7. uçuşların təhlükəsizliyinin, aviasiya təhlükəsizliyinin təmin edilməsi, aviasiya hadisələrinin və insidentlərinin araşdırılması məsələlərinə dair məlumatları əldə etmək;

3.2.8. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə, o cümlədən mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.9. müvafiq sahədə beynəlxalq standartların və tövsiyə olunan təcrübənin icrası məqsədilə elmi və kommersiya təşkilatlarını, müstəqil ekspertləri və mütəxəssisləri, o cümlədən xarici mütəxəssisləri müqavilə əsasında öz fəaliyyətinə cəlb etmək;

3.2.10. mülki aviasiyada dövlət nəzarəti çərçivəsində təhlükəsizliyin təmini ilə bağlı yerli və xarici fiziki və hüquqi şəxslərə müqavilə əsasında xidmətlər göstərmək;

3.2.11. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.13. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.14. müvafiq sahənin fəaliyyətini tənzimləmək məqsədilə strukturların yaradılması, ləğvi və yenidən təşkili üzrə təkliflər vermək;

3.2.15. Agentliyin müfəttiş yoxlamalarını həyata keçirən müfəttiş heyəti vasitəsilə hava gəmilərinə, xidməti otaqlara daxil olmaq, texniki vasitələrlə, mülki aviasiya sahəsində fəaliyyət göstərən subyektlərin fəaliyyətinə dair bütün sənədlərlə (məlumatlarla) maneəsiz tanış olmaq, müvafiq sahədə çalışan vəzifəli şəxslərə uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi məsələləri barədə tapşırıqlar və müfəttiş göstərişləri vermək, habelə onların icra müddətlərini müəyyən etmək;

3.2.16. geyim formaları nümunələrinin, fərqlənmə nişanlarının və mülki aviasiyada geyim formalarının daşınması qaydalarının təsdiq edilməsinə dair təkliflər vermək;

3.2.17. təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, mülki hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar müvafiq sahədə fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslərin fəaliyyətinin müfəttiş yoxlamaları keçirilən zaman mülki aviasiya sahəsində fəaliyyət göstərən müvafiq subyektlərin nümayəndələrini bu yoxlamalara cəlb etmək;

3.2.18. uçuşların təhlükəsizliyinə, aviasiya təhlükəsizliyinə birbaşa təhdid yaradan çatışmazlıqlar və pozuntular aşkar olunduqda, həmin təhdidlər aradan qaldırılanadək mülki hava gəmilərinin və aerodromların, onların avadanlığının istismarını dayandırmaq, mülki aviasiya mütəxəssislərini işdən kənarlaşdırmaq və bu hallar üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi məqsədilə zəruri tədbirlər görmək;

3.2.19. hərbi və digər xüsusi rejimli zonaların yaxınlığında yerləşən hava limanları və aerodromların təhlükəsizliyinə təhdidlər yarandıqda, həmin hava limanlarının və (və ya) aerodromların təhlükəsizliyi təmin olunana qədər mülki məqsədlər üçün istismarına məhdudiyyətlər tətbiq etmək və ya onların fəaliyyətini dayandırmaq;

3.2.20. BMAT tərəfindən nəşri tələb edilən Aeronaviqasiya Məlumatlar Toplusunun, Aeronaviqasiya Məlumat Xidmətinin və heyətə vaxtında çatdırılması mühüm olan məlumatlardan ibarət bildirişin yayımlanmasını təmin etmək;

3.2.21. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.22. müvafiq sahədə maliyyə-iqtisadi, investisiya və tarif-qiymət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

3.2.23.dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsi barədə Nazirliyə təkliflər vermək;

3.2.24. müvafiq sahədə işlər görmək və xidmətlər göstərmək;

3.2.25. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.26. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən olunmuş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən olunmuş hallarda digər ödənişlər tutmaq;

3.2.27. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Agentliyin idarə olunması

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. Agentliyə ümumi rəhbərliyi və nəzarəti 4 (dörd) üzvdən - sədr və onun 3 (üç) müavinindən ibarət İdarə Heyəti həyata keçirir. İdarə Heyətinin sədrini Azərbaycan Respublikasının Prezidenti, İdarə Heyəti sədrinin müavinlərini isə Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri vəzifəyə təyin və vəzifədən azad edir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti sədrinin müavinləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Nazirliklə razılaşdırmaqla, Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.3. Agentliyin inkişaf istiqamətləri ilə bağlı Nazirliyə təkliflər vermək, strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.4. Agentliyin fəaliyyətini təşkil etmək;

4.5.5. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və BMAT-ın beynəlxalq standartları və tövsiyə olunan təcrübəsinə uyğun olaraq, onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğlərinin müvafiq sahədə çalışan personalın əməkhaqqından az olmamaq şərtilə təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

4.5.6. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.7. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək və bu barədə Nazirliyə məlumat vermək;

4.5.11. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.12. bu Nizamnamənin 3.1.74-cü yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.13. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.14. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.5.15. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. Agentliyin fəaliyyəti ilə əlaqədar İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda azı bir dəfə İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə İdarə Heyətinin iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.8. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.9. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü, habelə İdarə Heyətinin hər hansı bir üzvünün təklifi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.10.6. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.7. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.8. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.9. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, onun idarə, filial və nümayəndəliklərinin və tabeliyindəki digər qurumların strukturunu, ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.10.10. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.10.11. Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.10.12. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim edir, onların həvəsləndirilməsi üçün tədbirlər görür;

4.10.13. işçilərin sosial hüquqlarının həyata keçirilməsini təmin edir, işçilərin maddi təminatının və əmək şəraitinin yaxşılaşdırılması, habelə mülki aviasiya personalına tətbiq edilən xidmət şərtlərinin Agentliyin işçilərinə də tətbiq edilməsi üçün tədbirlər görür;

4.10.14. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.15. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.16. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.17. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.18. Agentliyin kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsiilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

### 5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Agentliyin nizamnamə fondunun məbləği 2 636 206 (iki milyon altı yüz otuz altı min iki yüz altı) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsinin vəsaiti, Agentliyin öz fəaliyyətindən, o cümlədən göstərdiyi xidmətlərdən əldə olunan vəsait, beynəlxalq təcrübəyə əsasən aviadaşıyıcılar tərəfindən hava limanlarına və aeronaviqasiya xidmətlərinə görə ödənilən məbləğdən nəzarət funksiyaları ilə bağlı yığımlar, ianələr, qrantlar, cəlb edilən investisiyalar və qanunla qadağan edilməyən digər vəsait hesabına formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülür.

5.6. Agentliyin müvafiq sahədə gördüyü işlərin və göstərdiyi xidmətlərin qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

### 6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirir.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

### 7. Agentlikdə uçot və hesabat

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

### 8. Agentliyin ləğvi və yenidən təşkili

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Ana təbiətimizi qorumalıyıq

## Əgər kimsə sağlam ağacı kəsirsə, özünə, ölkəsinə, millətinə xəyanət edir



**Azərbaycan xalqı vətənsevər, torpaqsevər xalqdır. Ululardan bizə miras qalan vətəni, torpağı, təbiəti hətta o qədər müqəddəs bilirik ki, ona "ana vətən", "ana torpaq", "ana təbiət" deyə xitab edirik... Təbiət bizim ümumi evimizdir. Onu sevmək, qorumaq hər bir insanın vəzifəsi, vətəndaşlıq borcudur. Əslinə qalsa, təbiət sevgisi də bizə ulularımızdan miras qalma çox qiymətli mənəvi xəzinədir.**

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan təbiətinə xüsusi önəm vermiş, onun daim təbii və ilkin toxunulmazlığını qorumağın vacibliyini zəruri saymışdır. "Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..." Ümummilli Liderin bu məşhur kəlamı dahi şəxsiyyətin təbiəti nə qədər sevdiyini, ona nə qədər bağlı olduğunu ifadə edir. Ulu Öndər Heydər Əliyevin zəngin maddi sərvətlərimizə - yaşıllığa, meşələrə, dağlara, çaylara, bulaqlara, bir sözlə, təbiətə münasibəti Azərbaycana nəhayətsiz sevgidən, ana Vətənə olan sonsuz məhəbbətdən irəli gəlirdi.

Ulu Öndərin Azərbaycan təbiətinə qayğısı bir övladın anasına göstərdiyi qayğı qədər səmimi, təmənnasız idi. Bu gün Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bütün sahələrdə olduğu kimi, Ulu Öndərin ekoloji arzu və tövsiyələrini də dönmədən və qətiyyətlə həyata keçirirlər. Ölkədə yaşıllaşdırma kütləvi, stabil və davamlı prosesə, vətəndaş vərdişinə çevrilib.

Təsadüfi deyil ki, 2024-cü il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdi. Sərəncamda Azərbaycan Respublikasının beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunur. Bildirilir ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılması mühüm vəzifə olaraq qarşıya qoyulub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Sənəddə xüsusi olaraq vurğulanırdı ki, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir".

Xatırladaq ki, ermənilər Qarabağda separatçılıq hərəkatına 1988-ci ilin noyabrında Şuşanın qədim tarixə malik nadir təbii sərvətlərindən olan Topxana meşəsində ekoloji terrorla başladılar. Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edən bu meşə vaxtilə əsl təbiət möcüzəsini xatırladırdı. Topxanada yaşı bilinməyən müxtəlif növ ağaclar var idi. Xalqımız bu terrora qarşı qəti mövqe sərgiləyib ayağa qalxdı.

İftixarla qeyd edə bilərik ki, bu gün ölkəmizin hər yerində qələbə ruhu hakimdir. Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşanın düşmən tapdağından azad edilməsi tarixi Qələbəmizin simvoludur. İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri yenidən bu yerlərə həyat verir, ermənilərin ekoloji sistemə vurduqları ziyan aradan qaldırılır. Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası keçirildi. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilana səfərləri zamanı Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları, Şuşada, Cıdır düzündə şam ağacları əkdilər. İşğaldan azad olunmuş ərazilərdə dövlətimiz tərəfindən ekoloji tarazlığın bərpası istiqamətində ardıcıl və məqsədyönlü iş aparılır. Ümumilikdə ölkəmizdə təmiz ekoloji mühitin yaradılması məqsədilə yeni yaşıllıqların salınması ənənə halını alıb. Hər il respublikamızda minlərlə ağac əkilir, yeni yaşıllıqlar salınır.

Təəssüf ki, ana təbiətə münasibətdə hələ də neqativ, arzuolunmaz hallar da baş verməkdədir. Bəzən öz maraqları naminə, bəzən qazanc xatirinə, bəzən də bilməyərəkdən təbiətə ziyan verənlər olur. Ən pisi odur ki, mətbuatda meşələri qıran, qiymətli ağacları məqsədli şəkildə məhv edənlərin sırasında daha çox vəzifəli şəxslərin, səlahiyyət sahiblərinin adları çəkilir. Belə hərəkət edənlər, vicdanlarından uzaq düşənlər elə zənn edirlər ki, onların bu əməlləri gizlin qalacaq. Etdikləri yaramazlığa görə cavab verməyəcəklər. Bir faktı unudurlar ki, Azərbaycanda canlı təbiət də qanunlarla qorunur.

Bu günlərdə yayılan Baş Prokurorluq və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə məlumatında qeyd olunur ki, Zaqatala rayonu ərazisində ağacların qanunsuz olaraq kəsilməsi faktı ilə bağlı keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 259.2.3-cü (qanunsuz olaraq ağac kəsmə şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

Bildirilib ki, ilkin istintaq-əməliyyat tədbirləri ilə Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolu üzərində yerləşən 1100-dən çox ağacın təhlükəsizlik məqsədilə budanması işləri çərçivəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Qudayev Muhuma Məmmədəli oğlunun başqa şəxsin adından "14 nömrəli Yol İstismarı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Paşayev Rüstəm Kamal oğlu ilə müqavilə bağlayaraq 15-16 fevral 2025-ci il tarixlərində həmin ərazidə ümumilikdə 140 ədəd ağacı qanunvericiliyə zidd formada, 7 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin ekoloji tələblərinə riayət etmədən budayaraq zərər yetirməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, sözügedən işlər müvafiq təcrübəyə malik olmayan şəxslər tərəfindən, bir çox ağacların alt yarus budaqları götürülməklə və estetik görünüşü korlanmaqla həyata keçirilmiş, bu işlərdə aidiyyəti nəzarət təşkilatlarının iştirakı təmin edilməmişdir. İstintaq zamanı Muhuma Qudayevə məxsus olan 4 obyektə baxış keçirilərək budanmış ağacların hissələri aşkar olunaraq saxlanc yerinə verilib.

Qeyd edilənlərlə əlaqədar "14 nömrəli Yol İstismarı" MMC-nin direktoru Rüstəm Paşayev, 8 saylı "Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC-nin direktoru İlham Namazov, Zaqatala Rayon İcra Hakimiyyəti başçısının Maqov kəndi üzrə inzibati ərazi nümayəndəsi Rəcəb Davudov tutduqları vəzifələrdən azad edilmiş, müvafiq nəzarət tədbirlərinin həyata keçirilmədiyinə görə 7 saylı RETSİ-nin rəis əvəzi Anar Süleymanov və həmin idarənin məsləhətçi-müfəttişi Əfqan Şibiyev vəzifələrinin icrasından kənarlaşdırılmışlar.

Vəzifə səlahiyyətlərindən sui-istifadə edənlər, nəhayət, anlamalıdırlar ki, bir gün qanunsuz əməllərinə görə qanun qarşısında cavab verəcəklər. Həm də o zaman bu əməli törədənlərə cəza çox sərt olacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 39 (9784) 21 fevral 2025-ci il CÜMƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
A.T. Rasi-zadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
Şərəfli missiya
Prezident İlham Əliyev Artur Rasi-zadəyə "Heydər Əliyev" ordenini təqdim edib
Azərbaycan ilə İran arasında əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanlar var
Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin Sədrini qəbul edib
Ağdam şəhərində "İmarət" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
Prezidentin silahdaşı, xalqın sevimlisi
Bəşəri ideallar naminə
azerbaijan-news.az

# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Heykəltaraş Andrey Ostaşovun əsərləri Heydər Əliyev Mərkəzində sərgilənəcək

**Heydər Əliyev Mərkəzində yeni sərgi təqdim olunacaq. AZƏRTAC xəbər verir ki, martın 14-də Heydər Əliyev Mərkəzində belaruslu heykəltaraş Andrey Ostaşovun "Qızılgülün sirri" ("The mystery of the rose") adlı sərgisi açılacaq.**




Sərgidə müəllifin "Yuxulara səyahət", "Pişik-qız və tısbağa rəqsi", "Yelpik və albalı", "Ürəklə qız", "Günəşin uşaqları", "Hind fili və kəpənəklər" kimi ilk dəfə məhz Bakıda tamaşaçı qarşısına çıxarılacaq əsərləri də yer alacaq.

1970-ci ildə Belarusda doğulan Andrey Ostaşovun rəssam kimi formalaşmasında Belarus, Rusiya və Avropa incəsənət məktəbinin təsiri olub.

Onun əsərlərində gözəllik mütləqdir və o, artıq yox olmaqda olan estet-filosoflar nəslinə aid rəssamdır. Heykəltaraş Uzaq Şərq regionunun məişət əşyaları və tətbiqi sənəti, samuray və Teddi oyuncaq ayılarının, nağıl şahzadələrinin və şamanların təsvirləri ilə cəsarətlə oynayır.

Belarus Rəssamlar İttifaqının üzvü olan Andrey Ostaşovun əsərləri Belarusun Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasında, Avropa və Asiyada şəxsi kolleksiyalarda saxlanılır.

Heykəltaraşın fərdi sərgiləri Monako, Paris, Pekin, Sankt-Peterburq, Tbilisi, Şanxay, Vyana və sair şəhərlərdə təşkil olunub.

Andrey Ostaşov yaradıcılıq materialları toplamaq məqsədilə dünyanın müxtəlif yerlərinə, xüsusilə də Asiya ölkələrinə çoxlu səyahət edir. Müəllifin xüsusi marağı isə insanın daxili aləmidir. Təsadüfi deyil ki, Bakı sərgisi də "Qızılgülün sirri" adlanır. Bu çiçək eyni anda zahiri gözəlliyi və mənəvi dərinliyi, əlçatmazlığı və əzəməti, gücü və həssaslığı özündə birləşdirir. "Qızılgülün sirri" hər kəs üçün fərqli və unikaldır. Heykəltaraş bizi yenidən bu dərin və gözəl səyahətə - öz daxili dünyamıza dəvət edərək eksponatlarının mənasını tapmağa və bu prosesin iştirakçısına çevrilməyə çağırır.

# Uşaqların qar sevinci










*Fotolar İlham BABAYEVİNDİR*


Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.02.2025-ci il tarixində gecə saatları ərzində VoLTE xidmətlərin istifadəsində və əməliyyatların həyata keçməsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bu istiqamətdə tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası tərəfindən Lalə Pərviz qızı İsgəndərovanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3498
Sifariş 370

Qiyməti 60 qəpik